QARABAĞ AZƏRBAYCANDIR!

Səs

№ 225 (6666) 8 dekabr 2022-ci il. Qiyməti 60 qəpik




## ŞUŞA -Türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzi!

7



## Əməyə verilən böyük qiymət!

2




"Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilib, Prezident İlham Əliyev mərasimdə iştirak edib

# Beşdən böyük dünyanın iki qütbü

12



*Dünyada dörd cəhət, iki qütb var. Bu, əlbəttə coğrafi anlamda belədir. Hərbi-siyasi anlamda isə cəhətlər nəzərə alınmasa da qütbün, qütbləşmənin böyük anlamı var. Qlobalistlər əsasən dünyanın birqütblü olması üçün çalışırlar. Təbii ki, özlərini də həmin dünyanın başında, idarəçiliyində görmək istəyirlər. İki qütb balans yarada bilər, amma alternativ düşünənlər rəqabətin, əksinə inkişafa əks təsir göstərəcəyi qənaətindədirlər.*

## Türkiyə-Azərbaycan dostluğu: VAHİD YUMRUQ!



5

## Bugünkü tərbiyə, sabahkı bəhrə...



8

## ATƏT-in Minsk QÜRUBU, yaxud mandatı itən, siyasi vəfatı baş tutan qrupu

6




## Yuxululuq qorxulu xəstəliklərin əlaməti ola bilər

16



*Rusiyalı həkim İrina Tereşçenko yuxululuq və yorğunluğun təhlükəli əlamətlər olduğunu bildirib.Onun sözlərinə görə, susuzluq hissi və ləng regenerasiya ilə müşayiət olunan yuxululuq və apatiya diabetə işarə ola bilər.*

## Narkoman: potensial cinayətkar, yoxsa psixi xəstə?

*Narkomaniya yaxın keçmişimizin, dövrümüzün, böyük ehtimalla ən çox da gələcəyin dəhşətli xəstəliyidir. Hər şeydən əvvəl bu insan beyinin və şüurunun, eləcə də iradənin xəstəliyidir.*




15

# Əməyə verilən böyük qiymət!

## *"Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilib, Prezident İlham Əliyev mərasimdə iştirak edib*




***Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edib.***




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə raport verərək dedi: Xoş gəlmisiniz, cənab Prezident, yeni inşa edilmiş "Akademik Xoşbəxt Yusifzadə" gəmisi istismara hazırdır.

Prezident İlham Əliyev: Salam. Xoş gördük. Təxminən üç il bundan əvvəl mən bu qərarı qəbul etdim və artıq gəmi hazırdır.

Akademik Xoşbəxt Yusifzadə: Bəli, hazırdır.

Dövlətimizin başçısına məlumat verildi ki, uzunluğu 141, eni 16,9 metr olan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin yükgötürmə qabiliyyəti 7800 tondur. Gəminin daimi heyəti 15 nəfərdən ibarətdir.

Tankerin inşasına 2019-cu ilin avqustunda başlanılıb. Gəmidə "W?rtsil? Finland Oy" (Finlandiya), "Wartsila Svanehoy A/S" (Norveç), "Carrier" (ABŞ), "Gürdesan Gemi Mak.San" və "Tic. A.Ş." (Türkiyə), "Tranzas" (Norveç), "Alfa-Laval" (İsveç) kimi tanınmış istehsalçıların avadanlıqları quraşdırılıb.

Yeni tanker Bakı gəmiqayırma zavodunda inşa olunan 4 tankerdən üçüncüsüdür. Bundan əvvəl istismara verilən "Laçın" (2019-cu il, dekabr) və "Kəlbəcər" (2021-ci il, sentyabr) neft tankerlərindən fərqli olaraq, "Akademik Xoşbəxt Yusifzadə" ilə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.

Diqqətə çatdırılıb ki, hazırda ASCO-nun istifadəsində 21 tanker var. Gəmilərin yaş həddini nəzərə alaraq, tanker donanmasının yaxın gələcəkdə yenilənməsi planlaşdırılır.

Qeyd edək ki, "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. ASCO-nun Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 25 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neftqaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Ümumilikdə ASCO Bakı gəmiqayırma zavoduna indiyədək 10 gəminin tikintisi ilə bağlı sifariş verib. Onların artıq 9-nun, o cümlədən bir yedək, üç sərnişin, iki Ro-Pax tipli gəmi-bərənin və üç tankerin inşası başa çatdırılaraq istismara verilib. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 6 quru yük gəmisi və 3 tanker olmaqla, 9 gəmi istismar edilir. Bu gəmilərin heyət üzvləri tamamilə yerli mütəxəssislərdən ibarətdir.

Xoşbəxt Yusifzadə: Görün, nə qədər şar asılıb?!

Prezident İlham Əliyev: Sizin şərəfinizə. Təxminən üç il bundan əvvəl sizin yubileyinizi qeyd edərkən.

Xoşbəxt Yusifzadə: Təxminən üç ildir, az qalıb.

Prezident İlham Əliyev: 2020-ci ilin yanvar ayı, yubiley məclisində.

Xoşbəxt Yusifzadə: Yanvarın 14-də. Üç ilə bir-iki ay qalıb.

Prezident İlham Əliyev: Bir ay qalıb.

Xoşbəxt Yusifzadə: Bir ay yarım qalıb.

Prezident İlham Əliyev: Dedim, qərar qəbul edirəm ki, növbəti gəmi Xoşbəxt müəllimin adına olacaqdır və hamı üçün sürpriz olmuşdu, o cümlədən Xoşbəxt müəllim üçün. O bilmirdi mənim hədiyyəm nə olacaq, hədiyyəm də, bax, bu oldu.

Xoşbəxt Yusifzadə: Görürsünüz, mən həyatımı neçə illərdir dənizdə qoymuşam. Mən Sizə çox təşəkkürümü bildirirəm. Hörmətli Prezident, doğrudan da mənə böyük qiymət verdiniz, doğrudan da mənə çox böyük bir hədiyyə etdiniz. Bu, Sizin təkcə mənə yox, bütün neftçilərə olan hörmətinizdir. Ümumiyyətlə, Siz o vaxtlar elə bizimlə on il bir yerdə işləmisiniz. Prezident olandan sonra da elə gözünüz bizim üstümüzdədir. Bizim bütün nailiyyətlərimiz Sizinlə bağlıdır. Siz hamısı ilə fərəhlənirsiniz, bizə də diqqət yetirirsiniz.

***Ardı Səh. 3***




## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanununun tətbiqi və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Əməyə verilən böyük qiymət!

*"Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilib, Prezident İlham Əliyev mərasimdə iştirak edib*












Əvvəli-Səh-2

Mən Sizə onu da deyim ki, cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da böyük işlər gördü.

Təşəkkür edirəm Sizə, çox böyük iş gördünüz. Bu gün mənim demək olar ki, ən xoşbəxt günlərimdən biridir. Hər şeyi gözləyərdim, amma dənizdə mənim adıma gəmi olsun, vallah, bunu heç yatıb yuxuda da görə bilməzdim.

Prezident İlham Əliyev: Bu, ədalətlidir.

Xoşbəxt Yusifzadə: Özü də ki, tanker. Məsələ ondadır ki, bilirsiniz, mən demək olar bütün gəmilərdə, tankerdə də olmuşam. Çünki hava bərk külək olanda başqa gəmi ilə qırağa çıxmaq mümkün deyildi. Biz tankerlərlə qırağa çıxırdıq. Hörmətli Prezident, əgər insanın bədənini neft sənayesinə bənzətsək, gəmiçilik onun ayaqlarıdır. Gəmiçilik olmadan biz dənizdə heç bir iş görə bilməzdik. Dənizdə nə yataqlar açmışıq, nə işlər görmüşük, nə edirik, bunlar hamısı gəmiçiliklə əlaqədardır. Çünki biz suda bunsuz heç bir iş görə bilməzdik. Özü də bu gəmiçiliyin o biri gəmiçilikdən - dəniz gəmiçiliyindən fərqi ondadır ki, o birilər birbaşa bir limandan başqa limana gedir, amma bu, açıq dənizə çıxır, platformalara yaxınlaşır. Odur ki, sizin hamınıza, bütün bu kollektivə öz təşəkkürümü bildirirəm. Bu, böyük vəzifədir.

Daha nə deyim?! Bir daha təkrar edirəm ki, bu, mənim ən xoşbəxt günlərimdən biridir. Mən Sizə necə minnətdarlıq edim, necə təşəkkürümü bildirim?!

Prezident İlham Əliyev: Sağ olun, Xoşbəxt müəllim.

Xoşbəxt Yusifzadə: Daha mənim əlimdən nə gələr, ancaq onu bilirəm ki, Sizin xətrinizi dünya qədər istəyirəm, ölənə qədər də nə cənab Heydər Əliyev, nə də Siz mənim heç vaxt yadımdan çıxmayacaqsınız. Çox sağ olun, minnətdaram.

Prezident İlham Əliyev: Sağ ol, Xoşbəxt müəllim. Siz Heydər Əliyevin işlərini xatırlatdınız. 1970-ci illərdə doğrudan da Azərbaycan neft sənayesinin yeni dövrü başlamışdır və siz də o işlərin iştirakçısı kimi o günləri yaxşı xatırlayırsınız. Məhz Heydər Əliyevin təşəbbüsü nəticəsində Azərbaycanda Xəzər dənizində neft-qaz yataqlarının işlənməsinə yeni təkan verildi. O cümlədən yaxşı xatırlayırsınız ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə və deyə bilərəm ki, təkidi ilə Dərin özüllər zavodu inşa edilmişdir. Hansı ki, o vaxt Həştərxanda planlaşdırılırdı. O, ondan xəbər tutdu, sovet hökumətinin yüksəkvəzifəli şəxslərinə müraciət etdi və sübut etdi ki, bu, Dərin özüllər zavodunun tikilməsi üçün ən məqbul yer Bakıdır, Azərbaycandır. Nə üçün? Çünki Xəzərin bütün neft-qaz sənayesinin mərkəzi bura idi və buna nail oldu.

İndi siz də yaxşı xatırlayırsınız ki, biz "Əsrin kontraktı" üzərində işləməyə başlayanda bu Dərin özüllər zavodunun bizdə olmasının nə qədər böyük əhəmiyyəti var idi. Çünki əgər bu zavod olmasaydı, bizim bütün kontraktlarımızın icrası bəlkə də 5-10 il gecikə bilərdi. Yəni, o vaxt bunu etdi və müstəqillik dövründə Heydər Əliyev neft strategiyasının icraçıları kimi biz sizinlə "Əsrin kontraktı" üzərində digər yoldaşlarla bərabər işləmişik və o günləri də həmişə xatırlayırıq. Bu gün inkişaf edən, güclənən Azərbaycanın təməli məhz o vaxt qoyuldu. Əgər o kontrakt imzalanmasaydı bizim gəlirlərimiz olmayacaqdı. Gəlir olmayan yerdə hər hansı bir inkişafdan söhbət gedə bilməz.

Bu gün biz Ulu Öndərin siyasətinə sadiq qalaraq yeni nəqliyyat infrastrukturu obyektlərini yaradırıq. Bax, bu tankerin yaradılmasının təməli 9 il bundan əvvəl gəmiqayırma zavodunun istismara verilməsi ilə qoyulmuşdur. O qərarı da mən qəbul etmişdim, bunu biz həll etdik. O vaxt bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Onsuz da biz başqa ölkələrdən gəmilər, tankerlər alırıq. Amma mən bilirdim ki, bunun böyük əhəmiyyəti olacaq. İndi heç kimdən asılı deyilik, həm peşəkar komanda var, həm təcrübə var. Deməli, burada bütün inşaat işləri yerli mütəxəssislər tərəfindən aparılır. Biz hər il bir neçə tanker, quru yük gəmisi, "Ro-Ro" gəmisi, bərə inşa edə bilirik. Bu gəminin sizin adınıza olması hesab edirəm ki, çox ədalətlidir. Düzdür, bu, nadir bir haldır, bəlkə də deyə bilərəm ki, yeganə bir haldır, insanın sağlığında gəmiyə onun adı verilir. Amma bu ədalətlidir. Bilirsiniz ki, mənim sizə çox böyük hörmətim var - həm mütəxəssis kimi, əfsanəvi neftçi kimi, gözəl insan kimi. Bax, bu gün sizin bizimlə bərabər burada olmağınız bir çoxlarını ruhlandırır ki, elə bu yaşda da adam gümrahdır. Sağlamlığı da yerindədir və öz nikbinliyi ilə hamımızı daha gözəl işlər görməyə ruhlandırır. Ona görə təbrik edirəm, Xoşbəxt müəllim.

Xoşbəxt Yusifzadə: Çox sağ olun.

Prezident İlham Əliyev: Mən yubiley tədbirində demişdim ki, bu tankerin açılışını bərabər edəcəyik. Bax, bu gün gəldi.

Xoşbəxt Yusifzadə: Sizin o qədər işiniz var. Bununla bərabər, gəlib burada tankerin istismara verilməsində iştirak etməyiniz doğrudan da bizim hamımız üçün, burada olanlar üçün böyük fəxrdir. Biz hamımız Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Xoşbəxt Yusifzadə: Mən Prezidentlə bir yerdə lent kəsirəm, bunu heç yaddan çıxartmaq olar?

Prezident İlham Əliyev: Təbrik edirik.

x x x

Sonra Prezident İlham Əliyev və akademik Xoşbəxt Yusifzadə tankerin istismara verilməsini bildirən lenti kəsdilər. Sonda xatirə şəkilləri çəkdirildi.

# Müdrikliyin dühası - dahi şəxsiyyət, fenomen Heydər Əliyev



*Dekabrın 12-si xalqımızın ümummilli lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış ulu öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötsə də, O, bu gün də, gələcəkdə də Azərbaycan xalqının qəlbində yaşayacaq, yaşadılacaq.*

Çünki öz müqəddəs əməli sayəsində Vətəni, xalqı uğrunda yorulmadan çalışmış Dahi Şəxsiyyət, Fenomen Heydər Əliyev ömrünü dövlətçiliyin inkişafı, Azərbaycanın tərəqqisi üçün şam kimi əritdi. Onun bir amalı var idi - qurduğu mütərəqqi dövləti beynəlxalq aləmdə tanıtmaq, lider ölkələrdən birinə çevirmək. Və bu amal gerçəkliyə çevrilib. Çünki Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir.

### MÜDRİKLİYİN DÜHASI

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli Lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə qaldırmışdır. Ümummilli Liderin Azərbaycanda siyasi hakimiyyətə gəlişini tarixi hadisə kimi qiymətləndirənlər öz qənaətlərində haqlıdırlar. Çünki rəhbər vəzifədə olduğu müddətdə respublikada köklü dəyişikliklər baş vermişdir. SSRİ dövründə hər bir tapşırığın Mərkəzdən verildiyi və idarə olunduğu bir vaxtda geridə qalan, çıxılmaz sosial-iqtisadi vəziyyətdə olan Azərbaycanda insanlar dirçəlişin olacağına şübhə ilə yanaşırdılar. Məhz ulu öndərin hakimiyyətə gəlişi xalqda böyük ruh yüksəkliyi yaratdı. Hakimiyyətdə olduğu illərdə respublikada yüzlərlə yeni müəssisə, istehsalat sahələri yaradılmış, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa edilmişdir. Heydər Əliyev ölkə rəhbərliyində yüksək vəzifədə çalışarkən öz iti zəkası, yüksək erudisiyası, siyasi uzaqgörənliyi, yorulmaz fəaliyyəti ilə daim diqqət mərkəzində idi.

### XİLASKAR MİSSİYALI QAYIDIŞ

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Dahi Şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Ümummilli Liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi. Sevindirici haldır ki, Ulu Öndərimizin ölməz ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ötən müddət ərzində dövlətimizin başçısının yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Zaman Heydər Əliyev siyasətinin alternativsizliyini və xalqın İlham Əliyevi dəstəkləməklə ən doğru addım atdığını göstərir. Bütün beynəlxalq təşkilatlar birmənalı şəkildə etiraf edirlər ki, Azərbaycanın inkişafı sürətlənib, ümumi daxili məhsul istehsalının artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilib.

### İLHAM ƏLİYEV VƏ SİYASİ VARİSLİYİN TƏNTƏNƏSİ

Bəli, xalqın irəlidə - Ulu Öndərdən sonra taleyini etibar etmək istədiyi lider yalnız İlham Əliyev idi. Prezident İlham Əliyev müxtəlif dövlətlərin siyasilərinin çeşidli mülahizələrilə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşayırdı. Ümummilli liderin ən layiqli varisi İlham Əliyev ona görə güclü idi ki, müstəqil Azərbaycan dövlətinə rəhbərlik estafetini qəbul edərək böyük siyasətə gəlişi Ümummilli Lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti üzərində formalaşmışdı. Belə bir tarixi şəraitdə Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, 19 il prezidentlik fəaliyyəti müddətində Prezident İlham Əliyev ölkə daxilində və xarici aləmdə məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edilir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

Ən əsası isə sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.Prezident İlham Əliyev 19 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hissləri yaratdı. Bu böyük qələbə, eyni zamanda, Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir",- deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bütün bu kimi əhəmiyyətli amillər isə həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev atasından əxz etdiyi nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyinə tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə başlatdığı işlər sahəsində gördüyü nəhəng layihələri respublikamızın Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Məqsəd isə birdir - Azərbaycan xalqının daha xoşbəxt və firavan yaşamasının təmin edilməsi, ölkəmizin adının ən yüksək zirvələrdə çəkilməsi. Bizlər də hər bir vətəndaş kimi inanırıq ki, Azərbaycanı, onun xalqını daha uğurlu gələcək gözləyir. Azərbaycanın dahi oğlu Ümummilli Lider Heydər Əliyevin əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədiyyən yaşayacaq, yaşadılacaqdır!

**RƏFİQƏ KAMALQIZI**

# Türkiyə-Azərbaycan dostluğu: VAHİD YUMRUQ!



*Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir və uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir.*

Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. ”İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir” - deyə Prezident İlham Əliyev bildirib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. ”Bir millət, iki dövlət”, - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Bildiyimiz kimi, Azərbaycan və Türkiyə arasında hərbi sahədə bağlanmış əməkdaşlıq sazişinə əsasən, iki qardaş ölkənin birgə təlimləri keçirilir. Bu, Azərbaycanın və Türkiyənin ortaq hərbi gücünün bölgədə sülhün və sabitliyin qorunmasında qarantıdır. Davam edən hərbi təlimlər Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini də



əhatə edir. Müxtəlif qoşun növlərinin şəxsi heyəti və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlimlər ordularımızın müxtəlif silah növlərindən istifadə etməklə döyüş bacarıqlarını və baş verə biləcək hər bir təhlükənin qarşısının alınması üçün peşəkarlıqlarını artıracaqdır. Türkiyə hər zaman Azərbaycanın yanında olaraq, istənilən təhdid və təxribatlara qarşı bir yumruq kimi birləşərək dostuna, düşməninə bu birlik və həmrəyliyi göstərir.

## “AZƏRBAYCANA VƏ YA TÜRKİYƏYƏ QARŞI MƏKRLİ PLANLARI OLANLAR BİLMƏLİDİRLƏR Kİ, TÜRK ORDUSU TƏK DEYİL, ORADA, HƏMÇİNİN BİZİM ORDU DA VAR”

Bildiyimiz kimi, Türkiyə Silahlı Qüvvələri dünyanın ən aparıcı ordularından biridir və 44 günlük müharibədən sonra Prezident, Müzəffər




Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinə uyğun islahatlar həyata keçirilir. Noyabrın 20-də başlayan Azərbaycan-Türkiyə birgə təlimində iki ölkənin hərbçiləri xüsusi məharət göstəriblər. Əgər istənilən anda Azərbaycanın ərazi bütövlüyünə və dövlət sərhədlərinə qarşı istənilən təhdid olarsa, bu təlimlər reallığa çevrilə bilər və düşmənin hər hansı bir təxribatına möhkəm zərbə ola bilər. Azərbaycan Prezident çıxışlarını birində bildirmişdi: ”Azərbaycana və ya Türkiyəyə qarşı məkrli planları olanlar bilməlidirlər ki, türk ordusu tək deyil,



orada, həmçinin bizim ordu da var. Bizim ordu isə tək deyil, o cümlədən orada türk ordusu da var. Sərhədimizdə təxribatları planlaşdıranlar, bizi qorxutmağa çalışanlar bu planlarını yaddan çıxarmalıdırlar”. Plana uyğun olaraq Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələri, Mühəndis Qoşunları, Raket və Artilleriya Qoşunlarının bölmələri təlimlərdə Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə birgə müxtəlif döyüş tapşırıqlarını yerinə yetirirlər.

## ”QARDAŞ YUMRUĞU” TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİNİN TƏZAHÜRÜ

”Qardaş yumruğu” təliminin ”Yüksək Səviyyəli Müşahidəçi Günü”ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zəngi ilə hər iki qardaş ölkənin təlimdə iştirak edən şəxsi heyətlərini təbrik ediblər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev şəxsi heyəti təbrik edərək ”Qardaş yumruğu” təliminin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu qeyd edib, birliyimizin sarsılmaz və əbədi olduğunu vurğulayıb. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə ”Bir millət, iki dövlət” anlayışı ilə keçirilən təlimin uğurla həyata keçirildiyini bildirib və heç kimin ayıra bilməyəcəyi birliyimizin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdıraraq bütün şəxsi heyəti təbrik edib.

## ”BİZ DÜNYA MİQYASINDA, DÜNYA ÇAPINDA NADİR ƏMƏKDAŞLIQ, İŞ BİRLİYİ, MÜTTƏFİQLİK NÜMUNƏSİ GÖSTƏRİRİK”

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, ”Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk”. Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. ”Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!”, - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Cənab Prezidentin vurğuladığı kimi, ”Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi. Bu siyasi və mənəvi dəstək bizi ruhlandırırdı”.

## ”BİRGƏ BƏYANNAMƏ - MÜTTƏFİQLİK HAQQINDA BƏYANNAMƏ ƏLAQƏLƏRİMİZİ ƏN YÜKSƏK ZİRVƏYƏ QALDIRIR”

Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Şuşa Bəyannaməsində iki ölkənin siyasi, iqtisadi, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkanlarının və potensiallarının birləşdirilməsi, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin olunmasında birgə səylərin davam etdirilməsi razılaşdırılıb. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. ”Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır”, - deyən Cənab Prezident bildirib ki, Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir: ”Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır”. Şuşa Bəyannaməsinin ən vacib tərəfləri iki dövlətin hərbi əlaqələrinin daha da inkişaf etdirilməsi və ölkələrin ərazi bütövlüyünə və suverenliyinə qarşı yarana biləcək təhlükəyə birgə müdafiəni nəzərdə tutan şərtləridir. Bu gün Azərbaycan-Türkiyə birliyi regiona yeni bir güc gətirib. Azərbaycan ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən təşkil olunan ”Qardaş yumruğu” birgə təlimləri bir daha bütün dünyaya göstərir ki, bu birlik sarsılmaz və ədəbdidir. Azərbaycanın dövlət sərhədləri, ərazi bütövlüyü toxunulmazdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

# ATƏT-in Minsk QÜRUBU, yaxud mandatı itən, siyasi vəfatı baş tutan qrupu




***Son günlər müzakirə mövzularından biri ATƏT-in Minsk qrupunun iflasa uğraması, siyasi vəfatının və dəfn mərasiminin baş tutmasıdır. Təkcə azərbaycanlı ekspertlər deyil, dünyanın nüfuzlu siyasi şərhçiləri və mötəbər strateji araşdırma mərkəzlərinin nümayəndələri də "ATƏT-in Minsk qrupu ləğv edildi", "Minsk qrupu öldü, dəfn olundu", "Bu, zatən ölü doğulmuş təşkilat idi" kimi rəylər ifadə edirlər. Bəs Minsk qrupu niyə fiaskoya məhkum oldu?***

Bu suala cavab tapmaq üçün yeni suallar vermək lazımdır. Məsələn, ATƏT-in Minsk qrupunun vəzifəsi nə idi? Təbii ki, vasitəçilik.

Bəs missiyası? Tənzimləmə qrupu kimi münaqişənin sülh yolu ilə beynəlxalq hüquq normaları əsasında həllinə nail olmaq.

Nəticə nə oldu? Azərbaycan öz milli gücüylə, hərbi-siyasi yolla münaqişənin həllinə nail oldu. Azərbaycanın 44 günlük müharibədə möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi təkcə ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil. Bu, eyni zamanda, dünyada yeni nümunənin - mühüm bir presedentin yaradılmasıdır. Söhbət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasına nail olmaqdan gedir. Eyni zamanda, ”Münaqişənin hərbi həlli yoxdur” deyənlərin, işğalçı ilə işğala məruz qalanı eyniləşdirənlərin siyasəti iflasa uğradı.

Sadə bir fakta nəzər salaq: Ermənistanın təcavüzkar siyasətini davam etdirməsinə, məlum qətnamələri yerinə yetirməməsinə görə bu ölkəyə qarşı sanksiya tətbiq edilməsi imkanı olsa da, belə bir təşəbbüs irəli sürülmədi. ATƏT isə ya siyasi susqunluq nümayiş etdirdi, ya da formal bəyanatlar verməklə kifayətləndi. Bu, ikili standartlar siyasətinin və selektiv yanaşmanın bariz nümunəsi idi. Çünki dünya təcrübəsində müxtəlif ölkələrə qarşı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin dərhal və tam icrasına dair kifayət qədər fakt və nümunə var idi. Məsələn, 1990-cı il avqustun 2-də İraq ordusu Küveytə hücum edərək onu işğal etmişdi. BMT 7 ay davam edən işğala görə İraqa qarşı sanksiyalar tətbiq etmiş, ABŞ və onun müttəfiqləri isə təşkilatın Təhlükəsizlik Şurasından mandat alaraq 1991-ci ilin fevralında ”Səhrada tufan” əməliyyatına başlamışdılar.

Azərbaycan isə uzun müddət qərəzli yanaşma ilə üzləşdi. Amma ölkəmiz bu ədalətsizliyi öz gücü ilə aradan qaldırdı, bütün dünyaya işğalçı siyasətin və separatizmə əsaslanan mövqeyin, yaxud neqativ geosiyasi amil olan bölücülüyə rəvac verən aqressiv politikanın hər hansı bir perspektivi olmadığını sübut etdi. Bu, həm də ATƏT-in ”premature” qurumunun perspektivsizliyini bir daha nümayiş etdirdi.

Artıq Minsk qrupunun keçmiş missiyasına uyğun fəaliyyətinə ehtiyac - lüzum yoxdur. Daha dəqiq desək, ”turist diplomatiyası” heç kimə lazım deyil. İndi əsas məsələ müharibəsonrası dövrdə bölgədə davamlı sülh və təhlükəsizliyin təmin edilməsi, 2020-ci il 10 noyabr tarixli Bəyanatda əksini tapan məsələlərin icrası, kommunikasiyaların açılması və digər bir sıra istiqamətlərdə fəaliyyət göstərməkdir. 44 günlük müharibənin bitməsindən bu zamana qədər həmsədrlər Ermənistanın üçtərəfli Bəyanatın icrası ilə bağlı öhdəliklərinin yerinə yetirilməsində israrlı olmadı və ya hər hansı bir sərt bəyanat verilmədi. Bu isə ”siyasi reanimasiya”da olan Minsk qrupunun vəfatını təsdiqlədi.

Minsk qrupunun funksiyasının bitdiyini və ya ”siyasi vəfatı”nı rəsmiləşdirməyin isə bir yolu var: həmsədrlər ayrılıqda deyil, birlikdə ya ”The Washington Post”, ya ”Le Figaro”, ya da ”Rossiyskaya qazeta”da elan versinlər: ”ATƏT-in Minsk qrupunun mandatı itdiyi üçün etibarsız sayılır” və yaxud ”Minsk qrupunun siyasi vəfatından kədərləndiyimizi bildirir, ikili standartlar siyasətini dəstəkləyən bütün qüvvələrə dərin hüznlə başsağlığı veririk” formasında. Məhz indi və həm sözün, həm də əməlin bitdiyi yerdə!




# ”Bu təlim heç bir ölkəyə qarşı yönəlməyib”

“Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan Türkiyə birgə hərbi təlimi keçirilib. Bu təlimin keçirilməsi hər il olduğu kimi bu ilin planına uyğun olaraq birgə fəaliyyət çərçivəsində həyata keçirilir”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib. Onun sözlərinə görə, təlim Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələri müxtəlif qoşun növlərinə şəxsi heyəti, döyüş və xüsusi təyinatı, mühəndis texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilir.

Ssenariyə uyğun olaraq Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr, Mühəndis Qoşunları, raket və artilleriya qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə müxtəlif təlim tapşırıqlarını yerinə yetiriblər. Təlimdə müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çayların üzərindən keçib qaçmaq məqsədilə fanton körpülərin salınması ilə müxtəlif tapşırıqlar icra edilib.

Birgə təlimdə əsas diqqət qoşunların qarşılıqlı əlaqə fəaliyyəti zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəlib. Bu təlimlərdə həm də ən müasir hərbi texnika və avadanlığın istifadəsi onun peşəkar heyətinin onlardan tam şəkildə istifadə qaydalarının yoxlanılması kimi tapşırıqlar da icra olunur.

Təlimlərdə həm də Azərbaycan Ordusunun Vətən müharibəsində 44 gün ərzində qazanmış döyüş təcrübəsinin elementləri və yanaşmaları da tətbiq ediləcək. Ümumiyyətlə, mən deyərdim ki, bu, birinci belə təlim deyil. Artıq Türkiyə Ordusu dedikdə, yanında Azərbaycan Ordusu da yada düşməlidir. Bunun üçün bütün hüquqi sənədlər tam şəkildə hazırlanır. İki dövlət arasında lazımi prosedur qaydaları aparılmışdır. Belə olduğu halda, hər hansı bir tapşırığı yerinə yetirmək üçün Azərbaycan və Türkiyə birgə təlimləri keçirilməlidir.

Son zamanlar irimiqyaslı təlimlər Türkiyə Ordusunun nümayəndələri ilə birgə keçirilir. Bu, bizdə ənənəvi hal alıb. Bu təlimlər o birilərdən fərqli olaraq, geniş bir ərazidə keçirilir. Yəni, Bakı, Astara, İmişli və Cəbrayıl rayonlarını əhatə edir. Azərbaycanın harada təlimlər keçirməsi onun daxili işidir. Bu da əvvəlcədən planlaşdırılmış təlimdir. Bu heç bir ölkəyə qarşı yönəlməyib.

Biz nəzərə almalıyıq ki, son zamanlar İran Respublikası Azərbaycan sərhədlərinə yaxın təlimlər keçirmişdi. Biz bu təlimləri izləyirdik. Bu hər yerdə belədir. Əgər hər hansı bir istiqamətdə qonşu tərəf hansısa təlim edirsə, adətən qonşu olan digər dövlət o istiqamətdə müəyyən bir təlim keçirir. Bütün təlimlər ölkəmizin sərhədlərini gücləndirmək üçündür”.

***A. Vəli***

# Xəstəxanada qeydiyyatda olmayan şəxslər İcbari Tibbi Sığortadan necə yararlanmalıdır?

İcbari Tibbi Sığortada yanlız həmin xəstəxanada qeydiyyatda olan şəxslər həkim müayinəsindən keçə bilər? Mövzu ilə bağlı SİA-nın sorğusuna cavab olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentindən məlumat verilib.



Məlumat üçün bildirək ki, vətəndaşların tibbi xidmətlərə əlçatanlığının artırılması, əhalinin sağlamlığının qorunması, xəstəliklərin erkən mərhələdə aşkarlanması və ağırlaşmaların qarşısının alınması, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə müvafiq tədbirlər həyata keçirilib. Belə ki, ”Sığortaolunanlara ixtisaslaşdırılmış tibbi xidmətlərin göstərilməsi üçün göndəriş vərəqəsinin verilməsi” Qaydasına əsasən vətəndaşlar poliklinika/Ailə Sağlamlıq Mərkəziləri istisna olmaqla, yaşadıqları və ya qeydiyyatda olduqları ərazidən asılı olmayaraq ixtisaslaşdırılmış ambulator tibbi yardım üçün göndəriş olmadan həm yaşadığı ərazi üzrə, həm də digər şəhər (Bakı daxil olmaqla) və rayonlarda TƏBİB-in tabeliyində olan istənilən dövlət tibb müəssisəsinə müraciət edə bilərlər.

Vətəndaşlar sözügedən tibb müəssisələrinə müraciət zamanı şəxsiyyət vəsiqəsini təqdim etməklə icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərdən yararlana bilərlər. Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri ilə https://its.gov.az/files/9/XZ.pdf linkinə keçid etməklə tanış ola bilərsiniz.

***Ayşən***

# ŞUŞA -Türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzi!




*Dövlət başçısı Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb*

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ”Dəmir yumruğu”, ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edildi. 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad olundu. Şuşanın abidələr şəhəri olduğunu söyləyən Ümummilli Lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: ”Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur”. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin azad edilməsi müjdəsini verdi: ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”. Xalq bu müraciəti, bu anları illər idi ki, səbirsizliklə gözləyirdi. Bu müjdənin verilməsi Azərbaycanın tarixinə yeni səhifə kimi daxil oldu. ”İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”, - deyə Cənab Prezident bildirib. Artıq biz Şuşaya qayıtmışıq. Şuşa həsrəti ilə cadar olmuş qəlbimiz məlhəm tapıb. Qan ilə suvarılmış bu torpağının hər qarışı bizim üçün əziz olan Şuşa yeni bir dövrünə qədəm qoyub.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, ölkənin gücü, iqtisadi inkişafı, dünya birliyində yeri və nizami, mütəşəkkil milli ordunun şücaəti nəticəsində Şuşa işğaldan azad olundu. Özü də çox ağır döyüş yolu ilə. ”Şuşa tarixi Azərbaycan şəhəridir. Çünki 1752-ci ildə Pənahəli xan bu şəhərin təməlini qoydu və ondan sonra bütün dövrlərdə Şuşada yaşayan əhalinin 98 faizi azərbaycanlılar idi və 30 il işğal altında qalmasına baxmayaraq Şuşa əyilmədi, öz milli ruhunu qoruya bildi, ləyaqətini qoruya bildi və bizi gözləyirdi. Biz də gəldik və Şuşanı azad etdik”, deyə Prezidenti İlham Əliyev bildirib.

## DAŞ KİTABƏLƏR, DAŞLAŞMIŞ YADDAŞIMIZ

Müstəqil Azərbaycanın alınmaz qalası, Qarabağın tacı sayılan Şuşa daşlaşmış yaddaşlarda iz salıb. Daş kitabələrdə vərəq-vərəq səhifələnir, tariximiz var, keçmişimiz, mədəniyyətimiz var bu kitabələrdə. Bəli, qədim tarixi olan Şuşa şəhərinin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad da adlandırıblar. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib, dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Şuşa adının mənşəyi haqqında müxtəlif fikirlər vardır. Xalq əfsanəsinə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu ”Şuşa” (şüşə) adlandırıblar. Bəzi mənbələrdə isə Şuşa şəhərinin adı türk tayfaları və türk sözləri ilə izah olunur. XIX əsrdə Şuşa ölçüsü və sərvətinə görə, Bakı və İrəvandan öndə gedən, Qafqazın ən iri şəhərlərindən biri idi. Çoxlu karvan yollarının kəsişdiyi bu yerdə on karvansara olub. Şuşa öz ipəyi, döşənmiş küçələri, iri daş evləri, parlaq naxışlı xalıları və cins atları ilə bura gələn hər kəsin diqqətini cəlb edib.

Ötən əsrin 70-ci illərindən Şuşanın həyatında yeni bir inkişaf dövrü başlayır. Ulu Öndər Heydər Əliyev tərəfindən şəhərin inkişafına xüsusi diqqət yetirilib. 1977-ci ildə Azərbaycan hökuməti iki tarixi qərar qəbul edib. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb edib. Şəhərdə yeni sənət ocaqları yaradılıb, bərpa, tikinti və yaşıllaşdırma işlərində yüksək nailiyyətlər qazanılıb. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib.

## QAFQAZDA YEGANƏ ŞƏRQ MUSİQİ ALƏTLƏRİ FABRİKİ TALANDI

1992-ci ildə Şuşa şəhərinin erməni işğalçıları tərəfindən işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasına, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

## ŞUŞA AZADLIĞININ İLK DÖVRÜNƏ MƏDƏNİYYƏT PAYTAXTI KİMİ QƏDƏM QOYDU

Dövlət başçısının Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Prezident İlham Əliyevin Şuşanı rəsmən Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi bu qədim şəhərin özəlliklərindən qaynaqlanır. Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu. Şübhə yoxdur ki, Şuşa çox yaxın illərdə nəinki Azərbaycanın, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir. Qısa bir zamanda Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu. Eyni zamanda, dövlət başçımızın göstərişi ilə Şuşada vaxtilə keçirilən ”Xarıbülbül” festivalı bərpa olundu. Bu festival şəhidlərimizin əziz xatirəsinə həsr olundu. Bildiyimiz kimi, tarix boyu Qarabağa qonaq gələnlər hər zaman Xarıbülbülü seyrə çıxıb. Qarabağda bu gülün şəninə konsertlər verilib, festivallar təşkil edilib. Ötən əsrin 80-ci illərinin sonundan keçirilməyə başlanan beynəlxalq musiqi festivalı məhz Xarıbülbülün adı ilə ifadə olunub və məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. ”Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra ”Xarıbülbül” festivalı Şuşada hər il keçiriləcək”, - dövlət başçısı çıxışlarının birində bildirib. Daha sonra 2022-ci il dövlət başçısı tərəfindən ”Şuşa ili” elan olundu. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, işğaldan azad olunan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradılır.

## QƏDİM ŞUŞADA QAYNAR HƏYAT

Dövlət başçısı Şuşa şəhərinin 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Bildiyimiz kimi, 2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir. Sərəncama əsasən, Şuşa şəhərinin 2023-cü il üçün ”Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planı hazırlanıb həyata keçiriləcəkdir.

Qədim tarixi olan Şuşa tarixin müxtəlif dönəmlərində ”Kiçik Paris”, ”Qafqazın sənət məbədi”, ”Azərbaycan musiqisinin beşiyi” və ”Şərqin konservatoriyası” adlandırılmış Şuşa yeni bir qaynar dövrünü yaşayır. Bu gün işğaldan azad olunan Şuşada Azərbaycan bayrağı ucalır. Şuşa məscidində azan səsi eşidilir, işığı ətrafa yayılır. Qısa zamanda həyata keçiriləcək yenidənqurma işləri nəticəsində Şuşa dünyanın ən gözəl şəhərləri siyahısında öz layiqli yerini tutacaqdır.

***Zümrüd BAYRAMOVA***

TƏHLİL+AKTUAL

# Bugünkü tərbiyə, sabahkı bəhrə...

***Söhbət ailələrimizdə böyüdüb tərbiyə verdiyimiz uşaqlarımız barəsində olacaqdır. O uşaqlar ki, onlar zaman-zaman ailələrinin güzgüsünə çevrilirlər, o güzgüdən isə cəmiyyətin hər bir üzvü həmin ailəni çox gözəl şəkildə görə bilir. O uşaqlar ki, bugünkü tərbiyələri sabahkı bəhrədir. O bəhrənin necə olacağı isə bizlərdən-valideynlərdən, nənə-babalardan, xala-bibilərdən, dayı-əmilərdən xüsusilə asılıdır. Bu gün ailələrimizdə tərbiyə verdiyimiz, sabah cəmiyyətin bir üzvünə çevriləcək övladlarımız həm yaxşı, həm də pis mənada bizim əsərlərimizdir.***



Yazıb, tamamlayıb, cəmiyyətə oxumaq üçün təqdim etdiyimiz əsər. Cəmiyyət bunu necə qiymətləndirəcək, necə qarşılayacaq, bax, elə bu barədə danışaq ki, təqdim etdiyimiz əsərlərin aqibəti bizləri bu gün düşündürsün ki, sonra gec olmasın...

### Ərköyün uşaqlar, yoxsa səhv edən böyüklər?..

Bu gün ailələrimizdə uşaqların tərbiyəsində iki şəxs dayanır: uşaqlar və böyüklər. Böyüklər tərbiyəni təqdim edənlər, uşaqlar təqlid edənlərdir. Düşünəndə ki, uşaq gözünü açır, valideynini görür, onun danışdıqlarını, ona yanaşmalarını eşidir, hiss edir, bəli, bir uşağın ilkin təməli də elə həmin ailədə-valideyni və ya nənəbabası, digər yaxın qohumları ilə qoyulur. Başqa cür ola da bilməz, təbii ki. Belə isə uşaqların tərbiyə prosesindən çətin, məsuliyyətli bir iş yoxdur, desəm, yanılmaram. Bu məsələyə, dərindən düşünəndə, o qədər həssaslıqla yanaşılmalıdır ki, sonu gözəl nəticə versin.

Nə üçün yuxarıda uşaqlar təqlid edənlərdir, dedim. Çünki sözün həqiqi mənasında, uşaqlar valideyni, onlarla birlikdə yaşayan digər böyükləri təqlid edirlər. Başqa cür ola da bilməz, ona görə ki, uşağı bir ağ vərəq olaraq düşünürüksə, o vərəqə yazılanlar ancaq ətrafdakıların dəsti-xətti ilə mümkündür. O mənada ki, həmin vərəqdə böyüklərin tərbiyəsi əsasında mürəkkəb görünür və haqqında danışdığımız əsər də beləliklə yazılmağa başlayır.

Bəzən düşünürük ki, uşaq dünyaya gəldi, vəssalam, istəyi nədirsə, onu da etməliyik. İlk aylarından təlik öz qoxumuza da öyrətmişik. Lakin bütün bunlar əksinə olmalıdır. Uşaq müəyyən saatlarda qucaqda saxlanılmalıdır ki, bunu bütün analar daha yaxşı bilirlər.

Bir neçə ay sonra isə uşaq artıq dərk etməyə başlayır, nələrsə istəyir. Biz nə edirik? Onun bütün istəklərini yerinə yetirməyə çalışırıq. Bu da iki səbəbdən baş verir. Ya onu sakitləşdirib səsinin çıxmamasına çalışırıq, ya da əzizləyərək bunları edirik. Hər iki nəticədə isə ərköyün uşağın təməlini qoyuruq.

Uşağın tərbiyə olunmasında onun tərbiyəsinin əsasının qoyulması kimi dəyərləri unuduruq. Məsələn, ağladı-ağlamadı, onu saatlarla qucağımızda saxlayır, atır-tutur, necə deyərlər, sanki uşaqlığımıza qayıdır, onunla oyuncağımız kimi oynayırıq. Beləliklə, uşağın ilk ərköyünlüyünün təməlini qoymuş oluruq. Artıq biz onu yerə qoymaq, bir işin ardınca gertmək istəyəndə o, buna imkan vermir, başlayır ağlamağa. Çünki biz onu belə alışdırmışıq. Hələ üsçoxüzvlü ailələr daha diqqətli olmalıdırlar. Düşünəndə ki, nənə uşağa bir cür, baba bir cür, əmi, bibi bir cür yanaşır, onda bəli, diqqətli olmaq lazımdır. Çünki belə ailələrdə uşaq müxtəlif yanaşmalar arasında qalır, hamı alır, gətirir, onu əzizləyir, qucağına alır və uşaqsa bütün bunların əhatəsində sadəcə ərköyünləşir. Bu ərköyünlük isə onunla birlikdə böyüyür, amma heç də yaxşı nəticə vermir.

Ailənin kiçik və ya böyük olmasından asılı olmayaraq uşaq normal yanaşma şəraitində böyüyərsə, sonrakı nəticələr də ürəkaçan olar. Hər bir ailənin üzvləri uşağı ifrat dərəcədə əzizləmək əvəzinə, onların gələcəyini düşünərlərsə, cəmiyyətə daha gözəl-həm sağlam, həm də tərbiyəli övlad bəxş etmiş olarlar.

### Uşaqla birlikdə böyüyən ərköyünlük

Bəli, uşağın ilk ayları ona bəlkə də ağlımıza gəlməyən yanaşmalar-əzizləmlər, bilsək ki, necə nəticələnək, bunu əvvəldən etmərik. Məsələn, ifrat dərəcədə qucaqda saxlamalar, əzizləmələr ərköyünlüyün təməlini qoyursa, bir az sonra alınan ifrat dərəcədə oyuncaqlar bu xüsusiyyətin inkişafına təkan verir. Bir də baxırsan ki, bir uşağın bir oyuncaqdan bəlkə 3-4-ü var. Həm israfçılığa, həm də uşağın ərköyünlüyünə səbəb olan bu oyuncaqların hər birini bir yaxını alıb gətirib. Uşaq da onu o tərəfə atır, bunu bu tərəfə atır.





Baxdıqca düşünürsən ki, əgər bunlardan bir ədəd olsaydı, uşaq heç də belə hərəkət etməzdi. Onunla başını qatar, oynayardı. Deməli, biz özümüz düşünmədən uşaqlarımızın ərköyünlüyünə şərait yaradır, sonra isə onların xarakterlərinə çevrilmiş bu xüsusiyyətlərinə görə əziyyət çəkirirk.

İllər ötür, biz isə yenə də fərqində olmadan uşağımızı ərköyün böyütməkdə davam edirik. Bir də baxırıq ki, onunla birlikdə mağazaya gedəndə nələrisə almağı bizdən tələb edir. Biz də sevə-sevə alırıq, yenə də düşünmürük ki, belə olacağını bir vaxtlar əsla düşünməmişdik.

Necə olur ki, uşaq sosial həyatda problemlərlə qarşılaşır, yaşıdları ilə bir araya gələ bilmir, təklik axtarır, özünə qapanır? Heç onun nə üçün bu vəziyyətə düşdüyünü düşünmüşükmü? Bunun da səbəbkarı biz valideynlərik.

Uşaq körpə olanda onun başını oyuncaqlarla qatırıq. Bir qədər böyüdükdən sonra televizoru açıb, onu da qoyuruq qarşısına ki, səsi çıxmasın. Gedirik öz işimizin ardınca.

səhv edirik. Beləliklə, ərköyün bir uşaq böyüdürük evimizdə. Bir az sonra artıq həmin uşaq 3-4 yaşda olmasına baxmayaraq geyindirdiyimiz paltarlarla razılaşmır, öz seçdiyi paltarları geyindirməyi tələb edir. Bunu da ailədə deyibgülməklə qarşılayırıq. Nənə bir tərəfdən, baba bir tərəfdən, əmi-bibi bir tərəfdən sevinir ki, uşağa bax, öz istəyini həyata keçirir. Onlardan biri bunu böyük xəta olaraq qəbul etmək istəmir ki, uşağın bu qədər ərköyünlüyü yolverilməzdir. Və onu düşünmək istəmirlər ki, bu gün güldürən uşaq sabah onları ağladacaq. Bu ərköyünlüklə böyüyərək sabah onlardan daha böyük nələrsə tələb edəcək və ya hansısa bir məsələdə öz qərarını verəcək, o qərarla hərəkət edəcək. Onda isə bu gün gülənlərin hər biri böyük narahatlıq hissi yaşayacaqlar. Uşağı, necə deyərlər, qoyub qarşılarına danlayacaqlar. Düz yol göstərməyə çalışacaqlar. Doğru hərəkət etmədiyini anladacaqlar. Yeri gələndə cəzalandıracaqlar. Belə olanda ailədəki hər bir üzv tərbiyəçiyə çevriləcək. Lakin tərbiyə üçün nə qədər gec başladıqlarının necə, görəsən fərqində ola biləcəklərmi?

Bəli, biz böyüklərin səhv addımı uşağımızın səhv tərbiyəsinin təməlidir. Onun bu təməllər üzərində böyüməsinin əsasıdır. Uşaq böyüdükcə, həmin tərbiyə də, ərköyünlük də böyüyür, yeniyetmələşir, gəncləşir. Bax, bu zaman övladımıza verdiyimiz tərbiyənin bəhrəsini görürük. Lakin artıq gecdir. Çünki biz bu tərbiyəni onun canına-qanına hopdurmuşuq.

### Bəzən gileylənirik ki...

Verdiyimiz tərbiyə əsasında "bəhrəsini" gördüyümüz və çox narahatlıq keçirdiyimiz məsələlərdən biri də övladımızın bağça, məktəb yaşlarında, xüsusilə də yeniyetməlik, gənclik çağlarında sosiallaşma problemidir. Uşağımızın gələcək həyatında rast gəldiyimiz bu xüsusiyyəti bizim bütün həyatımızı alt-üst edir. Hansı



Saatlarla telefonlarda-sosial şəbəkələrdə gəzirik, seriallar izləyirik, mətbəxdə işlərimizi görürük. Uşaqsa saatlarla danışmadan-dinmədən öz aləmində olur. Bu cür davranışımızı isə davam etdiririk. O, bir qədər böyüdükdən sonra telefonumuzu veririk əlinə. Daha sonra kompüter qarşısında saatlarla əyləşməsinə, oyunlarla başımı qatmasına göz yumuruq. Beləliklə uşaqlarımız ünsiyyətsiz böyüyür. Biz valideynlər vaxt ayırıb onunla oynamırıq, yanında olmuruq, müxtəlif toxunmalarla, söhbətlərlə yanında olmuruq. Uşaq da təkliyə öyrəşir.

Bağça yaşı çatanda baxırıq ki, o, uşaqlarla heç cür bir arada ola bilmir. Özünə qapılır, bir kənara çəkilir. Məktəbdə də belə olur. Düşünürük ki, keçib gedəcək, düzələcək. Lakin baxırıq ki, artıq o, universitetdə təhsil almağa başlayıb, lakin yenə də sosiallaşa bilmir, özünə qapanır, təkliyə çəkilir, sıxılır.

Əksər valideyn övladlarının bu proseslərdən keçməsinin səbəbini də anlamırlar. Düşünürlər ki, onlar utancaq xarakterlidir. Heç kimə qaynayıb-qovuşa bilmir. Onun bu xüsusiyyətini özləri üçün əsla problem hesab etmirlər və ümid edirlər ki, bu hal zamanla keçib gedəcəkdir. Lakin bu hal heç də asanlıqla keçmir. Və bu cür uşaq, yeniyetmə, gənclər olduqca böyük əziyyət çəkirlər. Yaşıdları tərəfindən qınanırlar. Onlarla birlikdə ola bilmədikləri üçün müxtəlif problemlərlə qarşılaşırlar. Bütün bunlar isə zaman-zaman onların özlərinə qapanması prosesini artırır, cəmiyyətdən kənarlaşdırır. Bu cür insanlar nə qədər savadlı olsalar da, cəmiyyətdə öz yerlərini tapa bilmirlər. Kollektivdə seçilir, heç də xoş olmayan xüsusiyyətləri ilə çoxları tərəfindən sevilmirlər.

Biz valideynlər isə onu bu utancaqlığı üçün danlayırıq. Bir az qaynayıb-qarışmasını tövsiyə edirik. Lakin əsla özümüzü günahkar sanmırıq ki, bax budur, bu, bizim əsərimizdir...



**“Tərbiyə də bir zəhmət növüdür. Sonda nəticəsi olan zəhmət növü. Zəhmətimizin hədər getməməsi üçün illərlə çalışırıq”**



## Uşaqlarımıza öyrətdiyimiz söyüşlər çox halda özümüzə qaytarılır

Səhv tərbiyə metodlarımızdan biri, həm də ən dəhşətlisi uşaqlarımıza söyüş öyrətməyimizdir. Öyrədirik, həm də bununla o qədər fəxr edirik ki, kənardan necə gülünc doğurduğunu görə bilmirik. Bu tərbiyə metodunda deyərdim ki, valideynlərdən çox baba, əmi-dayıların rolu olur. Guya ki, uşağı çox istəyirlər, dil-açar-açmaz başlayırlar ona söyüş öyrətməyə. Həm də çox ağır söyüşlər. Evdə qonaq olanda və yaxud uşaqla birlikdə dost-tanışla görüşməyə gedəndə onu vadar edirlər ki, həmin söyüşlərdən söyləsin. Uşaq da utanana və yaxud çəkinəndə müxtəlif hədiyyələr alacaqlarını vəd etməklə onun ağzından həmin söyüşlərin çıxmasına nail olurlar. Hədiyyəsini alan uşaqda isə artıq ikinci bir xüsusiyyət də formalaşmağa başlayır: hədiyyə, rüşvət almaqla öz iradəsi əleyhinə iş görmək.

Düşünəndə ki, bunlar övladlarımızın gələcəyi üçün nə qədər təhlükəlidir, vallah, bu gündən dəsmal götürüb ağlamaq lazımdır. Lakin biz bəzən düşünmədən, bəzən qayınqardaşımıza hörmətsizlik olar deyə, bəzən qayınana-qayınata qınağından uzaqda qalmaq üçün susuruq. Bilə-bilə ki, bunun gələcəyi heç də yaxşı olmayacaq, susuruq. Lakin ətrafdakı çoxsaylı yaxınlarımızın heç biri bu barədə düşünmür. Düşünmürlər ki, biz bu uşağı cəmiyyət üçün şəxsiyyət kimi böyütmürük, öz istəklərimizin təqlidçisi olaraq böyüdürük. Ona oyuncaq, şirniyyat almala, pul verməklə öz iradəmizdən asılı edirik. Ağzını söyüşə öyrədirik.

İllər ötür, övladımız bağçaya, məktəbə gedəndə atrıq dünən söydürüb güldüyümüz, uğunduğumuz uşaqlarımız bizim üçün problemə çevrilirlər. Hər gün onların söyüşlərinə görə müəllimlərdən giley gəlir. Biz də, filankəs, söyüş söymək olmaz ha, səni bağçadan, məktəbdən qovarlar, deyib onu qorxuduruq. Uşaqda yeni bir səhv tərbiyə növünü-qorxu hissini formalaşdırmağa başlayırıq. Beləliklə uşağımız olur söyüşkən, hədiyyələrə boyun əyən və qorxaq.

Budur, bizim səhvlərimizin qurbanı olan uşaqlar. Sonra da böyüyüb kimləsə bir sözü olarkən onu söyüb biabır edəndə, hətta bu söyüşləri bacı-qardaşına, ata-anasına qaytaranda onu günahkar sanırıq. Başlayırıq tərbiyəsinə görə ona nifrət etməyə. ”Sən niyə belə oldun, niyə bizim başımızı aşağı edirsən, adam da valideynə söyüş söyər?”,- deyir, onu qınayırıq ki, qınayırıq.

Ötən günləri xatırlamırıq ki, axı bu uşağı biz bu günə qoymuşuq. Onun söyüş söyməsində də, hədiyyə, pul qarşılığında düşdüyü çıxılmaz yollarda da, qorxaqlıq edib yalan danışmasında da özümüz günahkarıq. Bir zamanlar söydürüb gülüb-şənləndiyimiz uşaqlarımız indi bir tikə çörəyimizi zəhərə çevirənlər olublar. Düzgün tərbiyə verə bilmədiyimiz övladlarımız narahat həyatımızın səbəbkarları olublar.

## Bugünkü tərbiyə, sabahkı bəhrə...

Bəli, bayaqdan bəri sadaladıqlarımızın fonunda yekdil bir qənaətə gəlmək olur ki, bugünkü tərbiyə sabah öz bəhrəsini verəcəkdir. Nə əkərsən, onu da biçərsən, nə tökərsən aşına, o da çıxar qaşığına misalları kimi. Odur ki, uşaqlarımızı bir toxum, bir ting, bir gül fidanı kimi təsəvvür edək. Düşünək ki, o toxumu münbit torpağa əkməklə yaxşı məhsul əldə edə bilərik. Uşağımızı bir ting bilək. O tingi əlverişli bir mühitdə böyüdə, bar üstündə olan ağaca çevirə bilərik. Uşağımızı bir gül fidanı zənn edək, düşünək ki, o fidana necə baxsan, eləcə də görüntü ilə qarşılaşacaqsan. Ya həmin gül kolu gündən-günə gözəlləşəcək, ətrafa gözəl rayihə saçacaq, ya da ki, quruyub məhv olacaq, varlığından əsər-əlamət qalmayacaq.

Tərbiyə də bir zəhmət növüdür. Sonda nəticəsi olan zəhmət növü. Zəhmətimizin hədər getməməsi üçün illərlə çalışırıq. Yuxarıda vurğuladığım kimi, bir ağac tingini, gül fidanını torpağa əkməklə, toxumu torpağa səpməklə onun nəticələrini səbrsizliklə gözləyirik. Lakin gəlin görək o ting, o toxum su içməzsə, müxtəlif aqrar qayğılarla əhatə olunmazsa, bizim gözlədiyimiz nəticəni verə bilərmi? Əsla yox. İnsan da təbiətin bir parçasıdır. Bu canlılar oxşar xüsusiyyətlərə malikdirlər. Sən onunla necə davranırsansa, o da səninlə elə davranır. Əllərimizin boş qalmaması, zəhmətimizin hədər getməməsi, illərimizin boş yerə xərclənməməsi naminə, ey insanlar, gəlin doğrunu, düzgünü səhvlərimizə qurban verməyək. Yoxsa çox əziyyət çəkməli olacağıq. Rahatlığımız, övladlarımızın xoşbəxt gələcəyi naminə onlara düzgün tərbiyə verək ki, bəhrəsini dadanda zəhər tamında olmasın...

***Mətanət Məmmədova***



# Ermənistanda iqtisadi bum adı altında UĞURSUZLUQLAR

***Sənayesinin modernləşdirilməsi prosesinə təkan vermək üçün ümidsiz cəhdlər etməsinə baxmayaraq, Ermənistanda vəziyyət müsbətə doğru dəyişmir və buna ermənilərin özlərinin də ümidləri yoxdur. İqtisadi statistik göstəricilərdə şişirdilmiş artım göstərilsə də, reallıq başqadır. Hətta Ermənistan hökumətinin xarici şirkətləri azad iqtisadi zonalara (AİZ) cəlb etməklə bundan faydalanmaq cəhdləri belə uğurlu olmayıb. Müəssisələrin modernləşdirilməsi üçün nəzərdə tutulan dövlət güzəştli kreditləri belə müxtəlif istiqamətlər üzrə silinir və bu zaman hansısa nəticələrə ümid etmək, yaxşı halda, sadəlövhlükdür.***





İki il bundan öncə, 2020-ci ildə ölkəsinin rüsvayçı məğlubiyyətinə imza atan, kapitulyasiya sənədini imzalayan Nikol Paşinyan Ermənistanda iqtisadi islahatlar aparmaq arzusuna düşsə də, məhz bu müddət ərzində istəyinə nail ola bilmədi. Təbii ki, erməni baş nazirin arzusu, niyyəti hasil ola bilməzdi, çünki bunun üçün ölkəsində münasib şərait yoxdur. İşğalçılıq siyasəti yürütməsinə görə, son 30 il ərzində Ermənistan regionun iqtisadi və infrastruktur məkanına inteqrasiya edə bilməməsi əslində, gözlənilən idi. İşğalçı ölkə olan Ermənistanın regional əmək bölgüsü sisteminə cəlb edilməməsi, nəqliyyat qovşaqlarına və eləcə də münasib enerji mənbələrinə çıxışın olmaması, uzun onilliklər ərzində ucuz xammal və komponentlərə çıxışın çətinləşməsi bu ölkə üçün nikbin proqnozlar söyləməyə belə imkan vermir. Nəticə, daha dəqiq desək, rentabelliyin azalması, geriləmə bütün sahələrdə, xüsusilə Ermənistan iqtisadiyyatında özünü göstərir.

Ermənistan hökuməti hər zaman və hər sahədə olduğu kimi, iqtisadiyyatının inkişafı barədə də həqiqətə uyğun olmayan xəbərlər yaymaqdadır və guya onların etdikləri köklü dəyişikliklər sayəsində ölkə iqtisadiyyatında müsbət statistik göstəricilər ortaya çıxıb. Reallıq isə bütün bunların əksini göstərməkdədir. Əvvələ, işğalçı ölkə hakimiyyəti heç bir dəyişiklik etməyib, nəinki köklü və ya köksüz. Digər tərəfdən də, bu işğalçı ölkədə problemlər nə aradan qaldırılmayıb, nə də bunların həllinin hansısa variantı belə düşünülməyib. O baxımdan, Ermənistan iqtisadiyyatına uydurma statistik göstəricilər heç cür kömək edə bilməz. Nə uydurma, şişirdilmə rəqəmlər təqdim edilsə belə bunun reallıqla heç bir əlaqəsinin olmadığı dərhal ortaya çıxır. Rəsmi statistikaya görə, guya bu ilin üç rübündə Ermənistanda iqtisadi fəallığın artımı eydə alınıb, ixrac və idxalın artımı illik 4,4%-dən 14,1%-ə yüksəlib. Amma bu göstərici heç bir həqiqətə uyğun görünmür, çünki bunun üçün hansısa şərait və ya imkan işğalçı ölkədə yoxdur və bunların yalan məlumatlar, həqiqətdən çox-çox uzaq olan göstəricilər olduğunu ən sadə erməni belə başa düşür. Ona görə ki, bu il Ermənistan iqtisadiyyatında keyfiyyət dəyişikliyindən xəbər verən əsaslı dəyişikliklər müşahidə olunmayıb.

İşğalçı ölkədə maliyyə hesabatı aparарkən hansısa göstərici nəzərə dəyibsə, bu, heç də iqtisadi fəallıq anlamına gəlmir və müəyyən xarici amillərin təsiri burada nəzərə alınmalıdır. Belə təsirlərə, Avropa İttifaqından donor yardımının artması, sanksiyalar altında olan Rusiyadan turistlərin və köçürmələrin əhəmiyyətli axını, habelə Rusiya Federasiyası ilə ticarət əməliyyatlarının artması aid edilə bilər, hansıki bunlar işğalçı ölkədə iqtisadi fəallıq demək deyil. Yaxud, xarici məhsulların təkrar ixracı üçün Ermənistanın yükdaşıma bazasına çevrilməsi ilə bağlı kənd təsərrüfatı sənayesindən məhsulların tədarükünün artması da bəllidir və bu məsələdə də iqtisadi fəallıqdan danışmaq yersizdir. Qərbin tətbiq etdiyi sanksiyalardan yan keçməklə Rusiya Federasiyasına məhsul və avadanlıq daşımaq şansı əldə edən Ermənistanın ixracının 63,8% artmasının da nə səbəbdən olduğu hamıya bəllidir. Ermənistanın kənd təsərrüfatı sektorunun acınacaqlı vəziyyətini nəzərə aldıqda görürük ki, bu ölkənin Rusiya Federasiyasına ixracının dəfələrlə artırılması əlbəttə ki, inandırıcı deyil, çünki mümkünsüzdür. İrəvanın Moskva ilə ticarətdə beynəlxalq məhdudiyyətlər rejimini pozmasına ilk növbədə Fransanın, ələlxüsus da Avropa İttifaqı ölkələrinin razılığı şans yaradıb və bu da nəticəyə kifayət qədər təsir edə bilər, hansı ki, buna iqtisadi aktivlik demək olmaz, bu, yaxşı halda fürsətdən istifadə adlandırıla bilər.

Beynəlxalq donor yardımının artması hansısa göstəricilərdə öz əksini tapa bilər, amma bunun iqtisadi aktivlik sayəsində olmadığını hamı bilir. Ermənistanın keçmiş maliyyə naziri, dövlət maliyyəsinin idarə edilməsi üzrə beynəlxalq məsləhətçi Vardan Aramyan da bu barədə bildirib. "Uzun müddətdə ciddi transformasiyalar, investisiya fəallığının artması, ixracyönümlü sektorun artımı olmadan Ermənistan iqtisadiyyatı sabit inkişaf edə bilməyəcək və geosiyasi vəziyyət dəyişərsə, biz heç nə ilə qalma riskimiz var", deyə Aramyan vurğulayıb. O, xüsusilə vurğulayıb ki, Ermənistanda hansısa statistik göstəricidə artım qeydə alınırsa, bu təqdim olunan statistika Ukrayna ətrafındakı vəziyyətlə bağlı müvəqqəti amillərlə bağlıdır.

Aramyan kimi düşünən, belə bir qənaətdə olan ermənilər bu mənada haqlıdırlar. Hətta bu barədə Ermənistana məxsus mətbuat səhifələrində də kifayət qədər yazılıb və hələ də yazılmaqdadır. Dəfələrlə qeyd olunur ki, bu ilin yanvar-sentyabr aylarında Ermənistanda ÜDM-nin strukturunda əsas payı xidmət sektoru, ticarət sektoru, daşınmaz əmlak sektoru, daha çox da turizm və ictimai iaşə təşkil edir. Məsələ burasındadır ki, 2022-ci ilin ilk 10 ayında Ermənistana gələnlərin, daha dəqiq desək, 1,4 milyon nəfərin 46 faizi Rusiya Federasiyasının vətəndaşlarıdır, hansı ki, onlar əsasən səfərbərlikdən gizlənən Rusiya vətəndaşları olub. Əcnəbilərin, hətta səfərbərlikdən gizlənən Rusiya vətəndaşlarının Ermənistana kütləvi axını daşınmaz əmlak və istehlak mallarının bazarına təsirsiz ötüşə bilməzdi və bunu da statistik göstəricilərdə şişirdərək göstərmək ağılsızlıqdır, çünki bunlar heç də iqtisadi aktivliyə dəlalət etmir.

Ən təsirli məqam Ermənistanda xarici borclanmanın günü-gündən sürətlə artmasıdır, hansıki bu, işğalçı ölkə iqtisadiyyatına kifayət qədər ziyan vurur. Ümumiyyətlə, rəsmi İrəvanın siyasəti sanki xarici borcları artırmaq siyasətidir. Diqqətə çatdırmaq yerinə düşərdi ki, Nikol Paşinyan hökuməti dövründə Ermənistanın dövlət borcu 45%-dən çox artıb və bu gün həmin rəqəm 9,97 milyard dolları ötüb. Ötən il, 2021-ci ildə Ermənistanın dövlət borcu 1,3 milyard dollar, 2022-ci ilin yanvar-iyul aylarında isə daha 748,36 milyon dollar artıb və bu borclanmanın sonrakı aylarda da davam etdiyi bəllidir. Belə getdiyi halda bu ilin sonuna qədər borclanmanın ötən ilki göstəricini də ötüb keçəcəyi şübhə doğura bilməz. Bələki, bu yaxınlarda Fransa İnkişaf Agentliyi və Asiya İnkişaf Bankı ilə müvafiq olaraq 100 milyon avro və 100 milyon dollarlıq kredit müqavilələri də imzalanıb. Hətta Beynəlxalq Valyuta Fondu (BVF) da Ermənistana 165,6 milyon dollar kredit ayırmağa hazırlaşır. Eyni zamanda Avropa İttifaqının ümumilikdə 2,6 milyard avroya çatan maliyyə yardımı tranşlarının ödənilməsi də davam edir. Bunlar onu göstərir ki, Ermənistanda xarici borclanma kosmik sürətlə artır və əgər iqtisadi aktivlik varsa, nəyə görə belə borclanmalar ortaya çıxır. Bəlli olur ki, heç bir iqtisadi aktivlik yoxdur və yenə də İrəvan, xüsusilə Paşinyan hökuməti hamını aldatmağa çalışır, özü də yalanın ayaq tutub yeriyəcəyinə inanan olmayacağını nəzərə almadan çalışır.

Məsələ burasındadır ki, xarici borclanmanın böyük hissəsi büdcə kəsirinin ödənilməsinə yönəldilir. Bir sözlə, borclar real iqtisadiyyatın maliyyələşdirilməsinə yönəldilmir və itisadi aktivliyə heç bir təsir göstərmir. Onsuz da Ermənistanın sənaye sektoruna xarici özəl sərmayələrin cəlb edilməsi perspektivləri yox dərəcəsindədir. Bunun bariz nümunəsi Ermənistan hökumətinin ölkədə müxtəlif tipli azad iqtisadi zonalar yaratmaq səylərinin demək olar ki, tamamilə iflasa uğramasıdır. Ermənistan Mərkəzi Bankının məlumatına görə, 2020-2021-ci illərdə anti-böhran proqramı çərçivəsində biznesə verilən güzəştli dövlət kreditlərinin təxminən 92,2%-i maaşların, kommunal xərclərin ödənilməsinə, xammalın alınmasına və vergi ödənişlərinə sərf edilib. Daha dəqiq desək, borc vəsaitləri praktiki olaraq yeni texnikanın alınmasına və ya istehsalın genişləndirilməsinə sərf olunmayıb. Belə olan halda, hansı iqtisadi aktivlikdən dəm vurmaq olar? Yaxud, iqtisadi aktivlik uydurmalarına inanan tapılarmı?

Hazırda işğalçı ölkədə hansısa investisiya perspektivləri belə görünmür. Məhz buna görə də investorlarının Ermənistana cəlb edilməsi üzrə uğursuz cəhdlər anlaşılandır. "Alliance" və "Meridian" olmaqla, on il əvvəl yaradılan iki Azad İqtisadi Zonada indiyədək mikro layihələrə cəmi 16,2 milyon dollar sərmayə qoyulması deyilənləri təsdiq edir. Təsdiq edir ki, ciddi sənaye niyyəti olan bir rezidenti belə cəlb etmək mümkün olmayıb. O zaman hansı iqtisadi aktivlikdən söhbət gedir?

***İnam Hacıyev***

# Həyat amalını varlığı qədər Azərbaycan xalqına həsr edən Ümummilli Lider

***Dekabrın 12-si xalqımızın Ümummilli Lideri, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış Ulu Öndər Heydər Əliyevin anım günüdür. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir.***



*MUXTAR NAĞIYEV*
*YAP Səbail rayon təşkilatının sədri*

Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 19 il ötsə də, O, bu gün də, gələcəkdə də Azərbaycan xalqının qəlbində yaşayacaq, yaşadılacaq. Çünki öz müqəddəs əməli sayəsində Vətəni, xalqı uğrunda yorulmadan çalışmış Dahi Şəxsiyyət, Fenomen İnsan Heydər Əliyev ömrünü dövlətçiliyin inkişafı, Azərbaycanın tərəqqisi üçün şam kimi əritdi. Onun bir amalı var idi - qurduğu mütərəqqi dövləti beynəlxalq aləmdə tanıtmaq, lider ölkələrdən birinə çevirmək. Və bu amal gerçəkliyə çevrilib. Çünki Ümummilli Lider Heydər Əliyev yolu bu gün Onun ən layiqli davamçısı, Prezident İlham Əliyev Cənabları tərəfindən uğurla davam etdirilir, yaşadılır. Çünki Heydər Əliyev ideyası əbədi və dönməzdir.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi

Bəli, ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması ümummilli liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə dahi şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də ulu öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, ümummilli liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir.

### Ulu öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər: rəqəmlərlə

Ulu öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər diqqəti cəlb edir. Belə ki, 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz, yaxud orta hesabla ildə 3,6 faiz artmışdı. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru - emal sənayesi də inkişaf edirdi. Göstərilən müddətdə emal sənayesi sahələrində məhsul istehsalı 24 faiz, o cümlədən, yeyinti sənayesində 22 faiz, taxta məmulatı istehsalında 3,5 dəfə, metallurgiya sənayesində 2,5 dəfə artmışdı. Sənayenin inkişafı ilə yanaşı, ümummilli lider respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq 872 min kəndli ailəsinə 1372,8 min hektar torpaq sahəsi, 63 mindən artıq maşın və traktor, 4 min qaramal tövləsi, 2300 qoyun yatağı, 450 min baş qaramal, 1 milyon 900 başdan artıq davar verildi, ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı yarandı. 1997-2002-ci illərdə istehsal edilən kənd təsərrüfatı məhsullarının 99,01 faizi məhz onların payına düşürdü. Bu məhsulların satışında qiymətlər tam sabitləşmiş, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılmışdı.

### "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır

Bəli, bu gün ümummilli Liderimiz Heydər Əliyevin yarımçıq qalmış arzularını, o cümlədən ata vəsiyyətini Prezident İlham Əliyev həyata keçirir. Bu gün Azərbaycan dünyada qalib ölkə kimi tanınır. Bu, hər bir azərbaycanlıda qürur hissi yaradır. Bu hissi xalqımıza Prezident İlham Əliyev bəxş edib. Ulu Öndərin "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",- qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Öz əməlləri ilə xalqı və dövlətinin sonsuz sevgisini qazanmış lider xoşbəxtdir. Məsələyə bu xüsusda yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalqı ona görə cənab Prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqdir və son 18 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Bu gün müzəffər Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabr ayının 10-da Prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşiyanın imzaladığı üçtərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olundu.Son olaraq hələ Prezidentliyə başladığı ilk gündən cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunun davam etdirildiyini bir daha bəyan etmişdir: "Heydər Əliyevin siyasəti yaşamalıdır. Bu, zamanın tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir". Bəli, bu gün ümummilli lider Heydər Əliyevin siyasəti yaşamalıdır və bu, zamanın tələbidir. Çünki ümummilli lider Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərindən biridir. Onun əziz xatirəsi hər bir azərbaycanlının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır və yaşayacaq.



## "Paşinyan bu görüşə bir şərtlə gəlirdi ki, yanında bacısı Makron da olsun"

"Azərbaycanın dövlət başçısı ilə Ermənistanın baş nazirinin sonuncu görüşü oktyabrın 6-da Praqada baş tutub. Həmin zaman dördtərəfli görüş keçirildi və görüş bitdikdən sonra bəyanat verildi. Bəyanatda tərəflərin biri-birinin ərazi bütövlüyü və suverenliyini tanıması qeyd olunmuşdu. Cənab Prezident sonrakı çıxışlarında da bunun bizim üçün müsbət bir hal olduğunu vurğuladı". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov bildirib.

Onun sözlərinə görə, bundan sonra isə Moskvada Putinlə görüş keçirildi: "Burada da görüşlərin keçirilməsini, sülh müqaviləsinin bağlanmasını dəstəklədilər. Lakin orada müəyyən ifadələr işlədildi ki, bu da bizim tərəfimizdən qəbul olunmadı. Bunlara baxmayaraq biz əvvəl də irəli sürdüyümüz beş prinsip əsasında sülh müqaviləsinin bağlanmasını bir daha ortaya qoyduq. Lakin sonradan məlum oldu ki, dekabrın 7-də Brüsseldə görüş keçirilməli imiş və belə məlum oldu ki, bu görüşə Paşinyan bir şərtlə gəlir ki, yanında bacısı Makron da olsun. Təbii ki, buna da Azərbaycan dövlət başçısı razı olmadı. Ermənistanın qeyri-konstruktiv təklifinə görə bu görüş baş tutmadı. Amma son dövrlər Rusiya, ABŞ, Avropa İttifaqı sülh müqaviləsinin bağlanmasını istəyirlər.

Biz dəfələrlə qeyd etmişik ki, BMT-nin beynəlxalq sülh təkliflərindən ibarət olan 5 prinsip ilə sülh müqaviləsini bağlamaq istəyirik. Eyni zamanda, həmin müqavilənin bağlanması qeyd etdiyim kimi, Rusiya, ABŞ, Avropa İttifaqı da istəyir. Lakin bəzi ölkələr, xüsusilə də Fransa buna mane olmağa çalışır. Ümumilikdə bu müstəvidə görüşlərin keçirilməsi olduqca vacibdir. Güman edirəm ki, yaxın müddət ərzində də yenidən üçtərəfli görüş keçiriləcək və sülh müqaviləsinin bağlanmasının detalları müzakirə olunacaq. Düşünmürəm ki, ilin sonunadək sülh müqaviləsi bağlanacaq. Amma bu istiqamətdə addımlar atılacaq.

Onu da qeyd etmək istəyirəm ki, elə Azərbaycanın, Rusiya və Ermənistanın baş nazirlərinin müavinlərinin iştirakı ilə yeni bir iclas keçirilib. İclasda tərəflər Rusiyanın pozitiv rol oynadığını qeyd ediblər. Eyni zamanda, burada Azərbaycan, Rusiya, Ermənistan arasında dəmiryol nəqliyyatının çəkilməsi məsələsi müzakirə olunub. Bu bizim Zəngəzur dəhlizinin açılması ilə bağlı irəli sürdüyümüz məsələdir. Onlar artıq düşünürəm ki, bu dəhlizin açılmasının Ermənistan üçün də nə qədər əhəmiyyətli olduğunu başa düşürlər".

***Səbinə Hüseynli***

## "Sülhməramlılar sülhün və sabitliyin qorunmasına xidmət etməlidirlər"



"Rusiya sülhməramlılarının bugünkü fəaliyyəti o qədər də qənaətbəxş deyil və onlar birtərəf mövqe tutmalıdırlar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ramiz Alıyev bildirib. Onun sözlərinə görə, həmin ərazilərdə sülhün və sabitliyin qorunmasına xidmət etməlidirlər: "Qeyri-qanunu fəaliyyət göstərən erməni birləşmələrinin ərazilərimizdən çıxarılmasında maraqlı olmalıdırlar. Bunu 10 noyabr bəyanatında Rusiya Prezidenti qəbul edib imzalayıb. Amma təəssüflər olsun ki, hələ də qeyri-qanuni erməni birləşmələri bu ərazilərdən çıxarılmayıb. Bu da rus sülhməramlılarının zəif mövqe nümayiş etdirməyindən irəli gəlir. Təbii ki, bunlar yolverilməzdir.

Xankəndində və bəzi ərazilərdə erməni adlarından istifadə olunması da düşünürəm ki, rus sülhməramlılarının zəif mövqe sərgiləməsindən qaynaqlanır. Rus sülhməramlılarının etdiyi bu rəftarlar ilk növbədə öz ölkələrinə olan hörmətsizlikdir. Üçtərəfli bəyannamədə göstərilən bəndlərə əməl edilməlidir. Əgər edilmirsə bu Rusiya prezidenti Vladimir Putinin mövqeyinə zidd olan hərəkətdir. Belə olan təqdirdə Azərbaycan öz gücünü göstərməlidir. Bu ərazilərə mütəmadi olaraq Azərbaycan KİVi-i səfər etməlidir. Həmçinin digər aidiyyatı üzrə qurumların səfərləri mütəmadi olaraq təşkil olunmalıdır".

***Abutel İlhamqızı***

***Dünyada dörd cəhət, iki qütb var. Bu, əlbəttə coğrafi anlamda belədir. Hərbi-siyasi anlamda isə cəhətlər nəzərə alınmasa da qütbün, qütbləşmənin böyük anlamı var. Qlobalistlər əsasən dünyanın birqütblü olması üçün çalışırlar. Təbii ki, özlərini də həmin dünyanın başında, idarəçiliyində görmək istəyirlər. İki qütb balans yarada bilər, amma alternativ düşünənlər rəqabətin, əksinə inkişafa əks təsir göstərəcəyi qənaətindədirlər. Dünya insanlarını vahid millət altında birləşdirmək istəyən güclərin ikiqütblü, yaxud çoxqütblü dünya ilə işləri yoxdur.***

# Beşdən böyük dünyanın iki qütbü



## *Ukrayna müharibəsindən sonra ABŞ-ın qlobal rəqibi kim olacaq?*



## BAXIŞ BUCAĞI

Məhz buna görə də dünya düzəlmir, müxtəlif bəhanələrlə müharibələr aparılır, qloballaşma siyasətinə boyun əyən dövlət və millətlərin assimliyasiya arzuları gerçəkləşdirilir. Dövlətlər arasında fikir ayrılıqlarının səbəbi üzdə başqa olsa da, əsas məsələ qloballaşma ilə razılaşmaqdır.

Bu gün dünyanın qütblərin sayı iki olsa da yalnız bir yerin sahibi bəllidir - ABŞ. İkinci qütb uğrunda savaş gedir. Vaxtilə SSRİ bu qütbdə oturmuşdu. II Dünya müharibəsindən sonra başıpozuq Avropanı bir çətir altına toplamaq üçün ABŞ-a vaxt lazım idi. Əgər "Proletariat diktaturası"nın o kürsüdə oturmasını əngəlləmək üçün savaşa başlasaydı bu, ABŞ-ın ziyanına olardı və heç vaxt da indiki kimi Avropanı nəzarətində saxlaya bilməzdi. Ona görə də 40 il sovetləri rəqib kimi qəbul edib onun çöküş planını hazırladı. Və bir həmlə kifayət etdi ki, SSRİ darmadağın olsun. Təbii ki, burada "ağacı öz içindən qurd yeyər" atalar məsəlini da unutmayaq.

Bu gün ABŞ-ın rəhbərlik etdiyi Qərb Rusiyanın başını Ukrayna ilə savaşa qatıb. Dünyanın hegemonluğuna iddia edən Moskvanın gücünü tükətmək üçün Vaşinqton bütün imkanlarını səfərbər edib. Özü müharibədə iştirak etməsə də aktiv vasitəçidir və müharibəni körükləməkdə, tərəflərdən birini - Ukraynanı silahlandırmaqdadır. Narazılıqlara baxmayaraq Avropada-rinə idi, desək yanılmarıq. Onların danışacaqları çoxlu mövzuları var idi. Həqiqətən də iqtisadi müharibələr, Tayvana münasibətdə qarşıdurma, eləcə də Qərbin Çini anti-Rusiya sanksiyalarının tətbiqinə cəlb etmək cəhdləri səbəbindən son vaxtlar iki ölkə arasında münasibətlər xeyli pisləşib. Bundan əlavə, Pekinin Vaşinqtona çoxlu sualları var, çünki o, onu ÇXR-in gücünü sarsıdan əsas rəqabət mərkəzi hesab edir.

Eyni zamanda hər iki ölkənin razılıq əldə etmək üçün yeri var. Kommunist Partiyasının 20-ci Qurultayında Si Cinpinin dediyi kimi, Çin dünyanı ikiqütblü görməyə üstünlük verir. Yəni, onun fikrincə, kı və dünyanın digər qitələrindəki tərəfdaşlarını könüllü və ya könülsüz şəkildə bu kampaniyaya qoşub. Qərb koalisiyası ilə Rusiya Ukraynada baş-başa gəlib, ölümdirim savaşına çıxıb. Rusiyanı həm hərbi, həm də iqtisadi cəhətdən sarsıtmaq üçün cızılan plan yavaş-yavaş həyata keçməkdədir. ABŞ başqa bir iddialı ilə savaşa hazırlaşır. Hələlik açıq müharibə getməsə də bu toqquşma artıq hazırdır. ABŞ prezidenti Co Bayden və Çin prezidenti Si Cinpin G20 sammiti çərçivəsində Balidə keçirilən görüşdə də fikir mübadiləsi aparılsa da bu yalnız görüntü xatiUkraynadakı müharibədən sonra gələcək dünya nizamı məhz ikiqütblü dünyaya doğru hərəkət etməlidir. Balidəki danışıqlar zamanı tərəflər nüvə silahının yayılmaması ilə bağlı müəyyən anlaşma əldə edə bilərdilər. Amma bud a baş vermədi, fikirlər yenə haçalandı.

Bu ikitərəfli dialoqun digər məqamı qlobal təhlükəsizliklə bağlı idi. Çin Rusiyanın Ukraynadakı müharibəsini lokal münaqişə hesab edir. Ona görə də bu müharibənin Şərqi Avropadakı qarşıdurmadan kənara çıxmasının qarşısını almaqda maraqlıdır. Balidəki danışıqlardaRusiyanın Ukraynaya qarşı müharibəsində nüvə silahından istifadənin mümkünsüzlüyü ilə bağlı Vaşinqton və Pekinin ümumi mövqeyi almalı idi. Gözləmək olardı ki, Pekin Ukraynada nüvə silahından istifadə ediləcəyi təqdirdə Çinin ABŞ-a simmetrik davranacağı ilə bağlı Moskvaya qeyri-rəsmi hesabat verəcək. Yəni istənilən əməkdaşlığı dayandıracaq, investisiyaları məhdudlaşdıracaq və birgə layihələri bağlayacaq. Rusiya bundan çox zərər çəkəcək. Ona görə də başa düşmək lazımdır ki, Çin Moskvaya təsir edə bilər.

Digər məqam - tərəflər Sakit okeanda gərginliyin azaldılması ilə bağlıdır. Bu o deməkdir ki, Pekin Tayvanın müstəqilliyi istiqamətində real addımların qarşısını almaq və status-kvonu saxlamaq üçün Vaşinqtondan Taypeyə təsir göstərməyi tələb edir. Vaşinqtonun isə Pekindən tələbi regionda hərbi gərginliyi azaltmaqdır. Şimali Koreya ilə bağlı növbəti razılaşma da iki ölkənin gələcək davranışlarına təsir edən amillərdən sayıla bilər. KXDR-in Rusiyaya silah tədarük etməsi faktı Bayden və Si Cinpinq fərqli cəhətdən narahat edir. Tərəflərin KXDR-in hərəkətlərinə təsir etmək niyyəti tezislərdə yer almayıb. Əksinə, Çindən ballistik raket sınaqlarını dayandırmaq üçün Pxenyana təsir göstərmək, həmçinin gərginliyi aradan qaldırmaq və Pxenyanı "günəş istisi" siyasətinə sövq etmək tələbi yerindədir. KXDR-in nüvə proqramının dayandırılması və Şimali Koreyanın nüvə silahı sınağının qarşısının alınması məsələləri hələ də aktualdır.

Bütün bunlar daim müzakirə olunacaq gündəmdir. Sualların əsas payı iqtisadiyyatla bağlıdır. Xüsusilə, ticarət müharibələrinin dayandırılması, Pekinin fikrincə, Vaşinqtonun dünya bazarlarında Çin malları və şirkətləri üçün süni şəkildə yaratdığı maneələrin aradan qaldırılması tərəfləri hədəfə doğru bir az da yaxınlaşdıracaq. Eləcə də Çin şirkətlərinə təhlükəsizlik baxımından tələblərin azaldılması və haqsız rəqabətə son qoyulması bu qəbildəndir. Bu, xüsusilə İT sənayesi üçün doğrudur. Axı Çin texnologiya mübadiləsindən çox asılıdır.

### Rusiya təbliğatı ABŞ-ı necə parçalayır

Müharibəyə cəlb olunması Rusiyanın dünya liderliyinə iddiasını azaltmayıb, əksinə bir az da həvəsləndirib. Bu gün Kremlin əsas səyləri təkcə ABŞ-ın Ukraynaya dəstəyini zəiflətməyə yönəlməyib. Əsas məqsəd Amerika cəmiyyətində daxili siyasi problemləri daha da gərginləşdirməkdir. Kremlin təbliğatı gündən-günə pas kimi Amerikanın demokratik dəyərlərin mahiyyəti haqqında fikirlərini korlayır. Dövlət prioritetlərinin aydınlığını bulandırır və ən mühüm, deyildiyi kimi, Qərb prinsiplərini dəstəkləmək əzmini zəiflədir. Putin KQB-dən gəlib, insanları bir-birinə necə qarşı qoymağı çox yaxşı bilir. O, Amerikada və dünyada xaos səpmək üçün ABŞ-ın daxili problemlərindən məharətlə istifadə edir.

Diqqət edin, Putin heç vaxt demokratiyaya qarşı çıxmır, heç vaxt demir ki, demokratiya işləmir. Əksinə, o, Rusiyanın həqiqətən demokratik ölkə olduğunu iddia edir. Təbii ki, bu, Putinin nou-hausu deyil. Bu gün Kremlin ən mühüm vəzifəsi və əsas məqsədi Amerika cəmiyyətini parçalamaqdır. Putin Rusiyanın Ukraynaya qarşı müharibəsi ilə bağlı olmayan daxili siyasi problemlərimizi yaxşı öyrənib. Amma Rusiya təbliğatı mövcud parçalanmaları daha da gücləndirir və əsas səbəbin "Ukrayna məsələsi" olduğunu təkid edir. Beləliklə, Kreml amerikalıların şüurunu məharətlə manipulyasiya edir, xalqı parçalayır və onların azadlığına hücum edir. Moskva Amerika cəmiyyətinin daxili problemlərinə müdaxiləsini kifayət qədər məqbul sayır. Məsələn, "Qaraların həyatı önəmlidir" adlı kütləvi etiraz aksiyaları zamanı Kreml iki qarşı tərəfi dəstəkləmək üçün reklamlara milyonlarla dollar xərcləyib. Əsas odur ki, amerikalılar arasında qarşıdurma və parçalanma təşkil olunsun, inandırmaq önəmli deyil.

*Ardı Səh.13*

# Beşdən böyük dünyanın iki qütbü



Əvvəli-Səh-12

Qərbdə Putinə inananlar da var. Məsələn, Jordan Peterson milyonlarla izləyicisi olan məşhur psixoloqdur. O, əmindir ki, Putin LGBT-lərə qarşı çıxır və bununla da ümumbəşəri dəyərləri müdafiə edir. Amma Amerikada heç kim Moskvanı transgenderləri qarşılamağa məcbur etmir! Bundan başqa, seksual kimlik məsələləri ilə Putinin ukraynalıları öldürmək qərarı arasında necə əlaqə ola bilər? Aydındır ki, LGBT insanların Ukraynadakı müharibə ilə heç bir əlaqəsi yoxdur, lakin Rusiya təbliğatı bu iki fenomeni hətta Qərb ziyalılarının şüurunda da birləşdirə bilib...

Amerika Ukraynaya dəstəyi zəiflətsə, bunun qısa müddətdə deeskalasiya effekti verəcəyi qətiyyən əmin deyil. Bəs bundan sonra nə olacaq? Putin Ukraynanı istəyir, yoxsa Moldovaya girəcək? Yaxud da Qərbin sonuncu dəfə təslim olduğu halda yenidən geri çəkiləcəyinə qərar verəcək. Bəs NATO Litva və ya Estoniyanın müdafiəsinə qalxacaqmı? Axı söhbət təkcə silah təminatından yox, ABŞ-la Rusiya arasında birbaşa toqquşmadan gedir. Nüvə müharibəsinə başlamaq şansı indiki vəziyyətlə müqayisədə dəfələrlə artacaq. Və bu təhlükəli ssenarinin qarşısını almaq üçün Putini dərhal dayandırmaq lazımdır.



### İsrail-İran qarşıdurmasında Avropa meydanı

Dünyanın iki qütbündən birinin yanında duranlar da liderliyə iddialı görünməsələr də niyyətlərinin olmadığını da demək olmaz. İran və İsrail fərqli cəbhələrdədir, amma tapşırıqları yerinə yetirləkdə həvəssiz deyillər. Bu dəfə isə İsrail İranın pilotsuz təyyarələri ilə mübarizə aparmaq üçün Avropada kinci cəbhə açıb. İsrail Ukraynada istifadə edilən pilotsuz təyyarələrin mənşəyi mövzusunu İran əleyhinə sanksiyaların gücləndirilməsi üçün bəhanəyə çevirmək niyyətindədir. Bunu İsrail Xarici İşlər Nazirliyinin Qərbdəki səfirliklərinə göndərdiyi məxfi göndərişlər və brifinqlər üçün materiallar nümayiş etdirir. İsraillilərin Tehranla bağlı fikirlərini keyfiyyətcə dəyişmək istəyinə baxmayaraq, münasibətdə dəyişikliklər artıq baş verib, Qərb rəsmiləri açıq şəkildə bildirirlər ki, pilotsuz təyyarələr məsələsi, onların fikrincə, İran etirazları fenomenindən daha çox çəki qazanıb.

İsrail diplomatik missiyasına göndərilən materiallar barədə "Axios" portalı məlumat yayıb. Yazılanlardan da görünür ki, yəhudi dövlətinin Xarici İşlər Nazirliyi əvvəlcə səfirliklərə ev sahibliyi edən ölkələrin hakimiyyət orqanları ilə dialoqda Ukraynada istifadə olunan pilotsuz təyyarələrin mənşəyi məsələsini daha tez-tez qaldırmağı əmr edib.

Daha sonra diplomatik şöbə də müvafiq brifinqlər üçün materiallar göndərib. "Axios"un fikrincə, Rusiya İran istehsalı olan pilotsuz təyyarələri xüsusi hərbi əməliyyatlar zonasında işlətməkdə ittihamlarla üzləşdiyi bir şəraitdə, yəhudi dövləti öz üzərinə əlavə beynəlxalq təzyiqləri təşviq etmək üçün mümkün qədər çox istifadə etmək istəyir. İsrail diplomatiyası öz arqumentlərini NATO baş katibinin müavininə təqdim edib. Yeni tapşırıqla yüksək rütbəli diplomat Aİ və Avropa Parlamentinin mənzil-qərargahında brifinqlər keçirmək üçün Brüsselə gedib. Mənbələr bildirirlər ki, bundan əlavə, bu mövzunu müzakirə etmək üçün İsrail beynəlxalq konfrans çağırmaq niyyətindədir - bu ideya artıq bir sıra müttəfiq dövlətlərlə müzakirə olunur. Qeyd olunur ki, bu cür səylər israillilərin taktikasının dəyişməsi deməkdir.

Rusiya rəsmiləri dəfələrlə qeyd ediblər ki, döyüşlərdə yalnız yerli istehsal silahlarından istifadə edilir. İran rəsmiləri də özünümüdafiə hüququndan istifadə edirmiş kimi Ukrauna müharibəsində Qərb ölkələrində istehsal olunan silahlardan istifadə edildiyi faktından danışıblar. İslam Respublikasının BMT-dəki Daimi Nümayəndəliyi pilotsuz döyüş təyyarələrinin yayılması ilə bağlı Ukrayna rəhbərliyinin nümayəndələri ilə Tehran arasında konstruktiv söhbətin qurulması üçün "əhəmiyyətli addımlar" atılmasının vacibliyini vurğulayıb. Bir gün əvvəl İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan görüşlərin olduğunu, lakin "Ukrayna tərəfi İranın pilotsuz təyyarələrindən istifadəyə dair heç bir sübut təqdim etməyib" demişdi. "Bu yaxınlarda İran və Ukraynanın siyasi və hərbi nümayəndə heyətləri üçüncü ölkədə danışıqlar aparıblar", - XİN rəhbəri qeyd edib.

Bununla belə, İran tərəfi son aylarda dron sənayesində irəliləyiş olduğunu nəzərəçarpacaq dərəcədə vurğulamağa başlayıb. Oktyabr ayında İranın Ali Rəhbərinin hərbi müşaviri general-mayor Yəhya Rəhim Səfəvi beynəlxalq oyunçuların yerli istehsal olan hərbi məhsullar üçün növbəyə durmalarına diqqət çəkib. O, İran pilotsuz təyyarələrini əldə etməkdə maraqlı olduğunu bildirən 22 ölkəni sayıb. Və bir ay əvvəl İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandiri general-mayor Hüseyn Səlami Tehranın öz hərbi texnikasını bir çox xarici alıcılara, o cümlədən böyük dünya güclərinə satdığını bildirib.

Vəziyyət artıq Avropa birliyini öz mövqeyini düzəltməyə məcbur edib, çünki əvvəllər o, İslam Respublikası ilə təmas ideyasına kifayət qədər sadiq idi. Bu ayın ortalarında Avropa İttifaqı SEPAH-ın iki strukturuna - Aerokosmik Qüvvələrinə və Qods Aviasiya Sənayesinə qarşı sanksiyalar tətbiq edib. Bu tədbirlərdən əvvəl, oktyabrın 20-də Brüssel böyük dron istehsalçısı olan Shahed Aviation Industries-i qadağan edən zaman məhdudiyyətlər qoyulmuşdu. Maraqlı sual yaranır, iddiaçılar dünya liderliyi uğrunda müharibə aparır, buna kifayət qədər imkanları da var, bəs İranın iddiası nədir?

**V.VƏLİYEV**

# "Hraparak"ın "kürkünə birə" düşüb: RSK-nın davranışları isə şübhəlidir!

### Azərbaycanlılar Xankəndinin girişinə post qoyacaqmı?



Azərbaycan ekoloqlarının bir neçə gün əvvəl Xankəndi yolu üzərində - Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərdə monitorinq aparmaq niyyətini irəli sürmələri və RSK-nın komandanı Volkovun birinci postda gömrük-rentgent avadanlığının quraşdırılması ilə bağlı vəd verməsinin ardınca digər məsələlər də, hələlik, açıq qalmaqda davam edir. Daha dəqiq desək, olayın üzərindən bir neçə gün keçməsinə rəğmən nə Volkovun dediyi kimi, azərbaycanlıların RSK ilə paralel qaydada nəzarət edəcəkləri "mini gömrük" postu qurulub, nə də digər məsələlər öz həllini tapıb.



RSK-nın "siçan-pişik" oyununu oynaması hansı nəticələrə gətirib-çıxara bilər?

Daha bir danılmaz fakt budur ki, RSK-nın separatçılara aşkar, yaxud gizli havadarlıqları davam edir. Necə deyərlər, "siçan-pişik" oyunu oynanılır, amma belə bir həssas məqamlarda belə oyunbazlıqların hansı nəticələrə gətirib-çıxaracağını da bəri başdan düşünmək olar. Üstəlik, ərazilərimizin erməni toponimləri ilə adlandırılması, hətta sülhməramsız "soldatın" jurnalistimizə "maşınınızı Azərbaycan tərəfinə keçirin" tələbinə, qanunsuz erməni silahlılarının "polis" geyimində RSK-nın arxasında dayanmasına da sərt münasibət bildirmək hələ də gec deyil.

Erməni nəşri: "Bizim Qarabağdakı mənbələr deyirlər ki, cihazların quraşdırılması ilə bağlı artıq razılıq əldə olunub"

Lakin digər tərəfdən, onu da etiraf edək ki, həmin hadisədən sonra erməni tərəfinin kürkünə də birə düşüb. Erməni mətbuatı bu barədə yazarkən iddia edirlər ki, RSK Azərbaycanın tələblərinə riayət edəcək. Bu arada, olayla bağlı erməni mənbələri iddia edir ki, Azərbaycan ekoloqlarının Şuşa-Laçın yolunda və Xocalıda RSK-nın komandanı Volkovla görüşündən sonra rus komandan separatçı-terrorçu rejimin qondarma "təhlükəsizlik şurası"nın katibi Vitali Balasanyanla da görüşüb. Guya Volkovun Xocalı qatili olan erməni general-mayorla görüşündə dolayısıyla Azərbaycan tərəfinin "xeyrinə" olan qərarlar əldə edilib və s.

### "Cihazların quraşdırılması ilə bağlı artıq razılıq əldə olunub"

Misal üçün, Ermənistanın "Hraparak" nəşri yazır: "Təhlükəsizlik şurasının katibi" (dırnaqlar bizimdir-R.R.) Vitali Balasanyan və komandası dünəndən bəri Rusiya sülhməramlıları rəhbərinin təkidi ilə Laçın dəhlizində keçid məntəqəsinin qurulmayacağı və rentgen skanerlərinin quraşdırılması məsələsinin hələ də müzakirə olunması ilə bağlı ictimaiyyətin başının altına yumşaq yastıq qoymağa çalışsalar da, bizim Qarabağdakı mənbələr deyirlər ki, cihazların quraşdırılması ilə bağlı artıq razılıq əldə olunub və yaxın gələcəkdə belə qurğular sülhməramlıların ərazisindəki nəzarət məntəqəsində quraşdırılacaq".

### Səbrin tükənməsi faktı artıq ortadadır

Qəzetə məlumat verən mənbənin sözlərinə görə, azərbaycanlılar onlayn rejimdə Qarabağa daxil olan avtomobillərin sərnişinlərini və baqajlarının içini izləyə biləcək və ruslarla birlikdə dəhlizə nəzarət edəcək: "Baxmayaraq ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda yolun yalnız Rusiya sülhməramlılarının nəzarəti altında olacağı açıq şəkildə göstərilib. Rusiya sülhməramlılarının komandanı Volkovun bir gün əvvəl Balasanyanla uzun-uzadı söhbət etdiyi və anti-Rusiya hay-küyü salmamaq üçün, hələlik, bu razılaşmalar faktını gizlətməyə qərar verildiyinə dair məlumatlar var", "Hraparak" qəzetinin xəbərində belə deyilir.

Bizə isə gözləmək qalır. Görək bu hadisələr necə inkişaf edəcək (?). İnanmaq istərdik ki, Azərbaycan tərəfinin tələb və şərtləri qısa zamanda reallaşdırılacaq. Əks halda səbrin tükənməsi faktı artıq ortadadır. Hətta daha dərindən vurğulasaq, YAŞMANIN və YARASANIN barmaqları tətikdədir və hədəflər, nişangahlar da məlumdur!

**Rövşən RƏSULOV**



# Boşanmış qadın, yoxsa kişi qınanılır?

ARAŞDIRMA

***Bir münasibət başlayır, insanlar bir-birinə öyrəşir, qərarlar verilir, ailələr görüşür, uzunmüddətli vədlər verilir. Hər şeyin yaxşı olacağına inanarkən problemlər yaranır və boşanma baş tutur. Bəs, boşandıqdan sonra qadınlar nə yaşayır? Boşanmaların ən çox görülən səbəbləri hansılardır? Qadınlara boşanma dövrünü asanlıqla keçmək üçün hansı təkliflər edilməlidir?***



### Boşanmanı necə qəbul etməliyik?

Boşanma mərhələsi bütün bağları kəsmək deməkdir və kifayət qədər çətin mərhələdir. Digər tərəfdən, ailə birliyinin və bütövlüyünün pozulması nəticəsində həm kişilər, həm də qadınlar bu prosesə xas olan çox çətin dövr yaşayırlar.

Boşanma zamanı güclü olmaq və hər şeyin öhdəsindən gəlməyə çalışmaq bu prosesdə fərdləri daha da yorur. Xüsusilə, emosional baxımdan çətin bir dövr olan boşanma prosesində özünüzə və hisslərinizə bir az daha çox vaxt ayırmalısınız. İlk başlarda bəlkə çətin olsa da, unutmayın ki, güclü insanın öhdəsindən gələ bilməyəcəyi heç nə yoxdur.

### Boşandıqdan sonra necə ayağa qalxmalıyıq?

Hər şeydən əvvəl münasibət sonlandıqdan sonrqa özünə və qarşındakı insana zaman verməlisən. Boşanmadan sonra uzun sürən kədər və sosial həyatdan uzaq olmaq psixi sağlamlıq üçün təhlükəli ola bilər. Bu hallarda mütəxəssis dəstəyinə müraciət etmək sizə bu prosesi daha sağlam şəkildə keçməyə kömək edəcək.

### Boşandıqdan sonra düzgün dəstək almaq nə üçün vacibdir?

Boşanma, əslində, çoxlu itkilər gətirir. İqtisadi və sosial itkilər, dostlardan uzaq olmaqdan yaranan itkilər, özünə inam itkisi və ailə təzyiqindən yaranan məhdudiyyətlər buna misal ola bilər. Boşanan qadının ən böyük problemi cəmiyyətin ona olan baxışıdır. Bu, boşanma yükü ilə yanaşı, əlavə bir yük də gətirir. Nəticəyə baxdığımızda ümumi bir məcburedici psixoloji mənzərə yaranır.







### Boşandıqdan sonra yeni münasibətə başlamazdan əvvəl nə etmək lazımdır?

Boşandıqdan dərhal sonra yeni bir münasibət qurmaq çox vaxt kədərlənmədən və ya bu itkinin psixoloji çətinliyindən qaçmaq kimi müəyyən edilə bilər. Qaçışla başlayan münasibət isə çox vaxt sağlam olmur.

Bəs, cəmiyyətdə boşanmış qadına qaşı münasibət necədir? Boşanmış kişi ilə boşanmış qadın arasında fərq nədir? Niyə kişi boşandıqda adi, qadında isə bu qeyri-adi, yaxud fəalkət kimi qarşılanır? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Məlum olduğu üzrə cəmiyyətdə hər məsələdə qınaq obyekti 90 faiz qadınlardır. Bu da qız uşaqlarının lap az yaşlı vaxtlarından başlayır. Belə ki, hələ uşaq ikən qızlarına ”Qız uşağısan, ağır ol”, ”Ucadan gülmə”, ”Axşam vaxtı çölə çıxma”, ”Belə əyləşmə” və s. kimi ifadələr səsləndirən valideynlərin sayı kifayət qədərdir. Yəni, qadınlar ta uşaqlıqdan hər məsələdə qınanılır. Boşanma da bura aiddir.

Bu gün cəmiyyətdə boşanmış qadınlar birmənalı qarşılanmır. Hətta uşaqlı boşanan qadın isə lap böyük bir qınaq mövzusudur. Bu zaman da ona ”Qadınsan övladına görə dözməlisən”, ”Yaxud yaxşı qadın olsaydın, ərini əlində saxlamağı bacarardın” kimi çirkin ifadələr səsləndirilir. Nədənsə fədakarlıq həmişə qadınlardan gözənilir. Lakin heç kim düşünmür ki, bu qadın nə yaşayıb ki, boşanma həddinə çatıb? Onu bu həddə çatdıran nədir? Bir qadın niyə minbir əziyyətlə qurduğu ailəsini adi bir məsələ üçün dağıtsın ki?! İnsanlar sadəcə kənardan izləyib qınamağı bilir.

Gəlin, etiraf edək ki, bu gün 99 faiz oğlanın valideyni subay oğlunun boşanmış qadınla ailə qurmasına icazə verməz. Onlar düşünür ki, ”Boşanmış, ”yanıbalalı” qadın bizim ailəmizə, yaxud mənim oğluma uyğun deyil”. Cəmiyyətimizdə boşanmış qaidnla subay oğlanın ailə qurmasına fəlakət kimi baxılır. Yaxud bir çox insan düşünür ki, ”Oğlanın nəysə bir problemi var ki, boşanmış qadınla ailə qurdu”.

Digər dəhşətli məqam isə günümüzdə əksər subay ”oğlanlar” boşanmış qadına yanlız cinsi münasibət qurmaq gözü ilə baxır. Onlar sevgi və qayğıya ehtiyacı olan bir qadından öz həvəsləri üçün istifadə etmək istəyirlər.

### Boşanmaların ən çox yayılmış səbəbləri nələrdir?

- Əslində, zina (xəyanət) bu gün boşanma qərarının verilməsində çox vaxt aparıcı amillərdən biridir.

- Bundan əlavə, fiziki və emosional zorakılıq da bura aiddir.

- Ər-arvadın bir-birini kifayət qədər tanımadan çox qısa müddətdə evlənmək qərarı, erkən nikah,
maliyyə problemləri,

- Cinsi həyatdakı çatışmazlıqlar və ya problemlər də boşanma qərarına səbəb olur.

- Texnologiyadan hədsiz asılı olmaq və biri-birinə zaman ayırmamaq.

- Sosial mediadan istifadə insanların sosial və ailə həyatına ciddi təsir edir. Çünki internet və xüsusilə sosial mediadan istifadə ilə yüzlərlə və daha çox insana çatmaq mümkündür. Xüsusilə bu gün sosial media səbəbiylə baş verən xəyanətlərin boşanma nisbətlərinin artmasında əhəmiyyətli bir faktor olduğunu görürük.

### Qadınlar boşanma prosesində necə reaksiya verirlər?

Ailə və sosial dəstəyi olan, bir xarakter olaraq həyatda çətinliklərin öhdəsindən gələcək qədər güclü olan qadınlar, nə qədər sıxıntılı olsalar da, boşanma prosesində və sonrasında yaşadıqları mənfi təsirlərdən daha asan qurtula bilirlər. Bəzi qadınlar isə yaşadıqları problemlərə, üzləşdikləri psixoloji və fiziki zorakılığa baxmayaraq evliliklərini davam etdirmək üçün səy göstərirlər. Onlar hətta evliliklərinin sona çatmasında özlərini günahlandırırlar. Bu baş verdikdə, onların psixoloji vəziyyəti korlanır və ciddi özgüvən problemi yaşayırlar.

Boşanan qadınlar özləri ilə barışmalı, özlərini əsla qüsurlu və günahkar görməməli, lazım gələrsə psixoloji dəstək almalı, sosial və psixoloji cəhətdən geri çəkilməməli, mütləq həzz ala biləcəkləri hobbi ilə məşğul olmalı, sağlam yaşamalı, idmanla məşğul olmalıdırlar”.

***Ayşən Vəli***

# Narkoman: potensial cinayətkar, yoxsa psixi xəstə?

## Onlar narkotik üçün hər cür cinayət törədə bilərlər, lakin bu xəstəlikdən müalicə olunmaları mümkündür

## NARKOMANİYAYA YOX DEYƏK!

*Narkomaniya yaxın keçmişimizin, dövrümüzün, böyük ehtimalla ən çox da gələcəyin dəhşətli xəstəliyidir. Hər şeydən əvvəl bu insan beyinin və şüurunun, eləcə də iradənin xəstəliyidir. Fiziki, ruhi və sosial problemlər, ətraf mühitin təsiri, baş verən hansısa bədbəxtlik insanları normal həyatdan kənarlaşdırır və bir çoxları üçün bu kənarlaşmanın son dayanacağı narkomaniya olur.*

### 2 trilyonluq qlobal biznes

Narkomaniya həm sosial-iqtisadi, həm də mənəvi-psixoloji cəhətdən ən təhlükəli bəla hesab edilir. Ekspertlər belə qənaətə gəliblər ki, narkomaniya cəmiyyətin gələcəyi üçün iki böyük təhlükənin daşıyıcısıdır. Əvvəla narkomaniya ilə xəstələnmiş şəxs özünün, ailəsinin, nəhayət, cəmiyyətin həyatında arzuolunmaz mənfi dəyişikliklərə gətirib çıxarır. İkincisi, cinayətkarlığın, zorakılığın, o cümlədən işsizliyin, təhlükəli xəstəliklərin yaranmasına səbəb olur.

BMT-nin hesabatlarına görə, hazırda dünyada təqribən 250 milyondan artıq insan narkotiklərdən istifadə edir. Bu 15-64 yaş üzrə dünya əhalisinin 5 faizi deməkdir. Bəzi ekspertlər real rəqəmlərin ən azı 2 dəfə daha çox olduğunu iddia edirlər. Dünya üzrə narkotik dövriyyəsinin isə 2 trilyon dollar civarında olduğu ehtimal edilir. Narkotikdən istifadə maddi mənfəətin itirilməsinə, müalicəyə böyük xərclərin çəkilməsinə, ailələrin dağılmasına gətirib çıxarır. Xüsusən də, narkotik maddələrin inyeksiyası dünyanın bir çox yerlərində HİV/AİDS və hepatitlərin sürətlə yayılmasına səbəb olur.

Statistikaya əsasən Avropa İttifaqı ölkələrində narkomanların sayı 1 milyondan çoxdur. MDB və Asiya ölkələri də Qərbdən geri qalmır. Burada təxminən 30 milyon adam narkotik vasitələrdən istifadə edir.

### Azərbaycanda narkomaniya təhlükəsi

Rəsmi rəqəmlərə görə, ölkəmizdə qeydiyyatda olan narkotik istifadəçilərin sayı 35 min nəfər təşkil edir. Lakin real rəqəmlərin dəfələrlə artıq olduğu güman edilir. Azərbaycanda narkotik istifadəçilərinin sayı hər il artır. Narahatedici fakt narkotik istifadəçilərinin yaş senzinin azalmağa doğru getməsi, yəni bu faktın gənclər arasında getdikcə daha çox qeydə alınmasıdır. Belə ki, ölkəmizdə narkomanların 20 faizə yaxınını gənclər təşkil edir.

Narkotik istifadəçilərinin, əsasən, 50 faizi heroin, sintetik heroin (kakos), tiryəkdən istifadə edir. Son illərdə isə opioidlərdən istifadə edənlərin ümumi faizi azalıb. Anfetamin və metamfetamin istifadəçilərinin sayı isə çoxalmağa başlayıb. Narkotik istifadəçiləri iynələrdən çox dərman atmağa üstünlük verirlər. Son illərdə narkotikin təsiri ilə kobud psixi halların sayı artıb. Bunu da səbəbi sintetik narkotik maddələrin istifadə edilməsidir.

Artıq bəzi gənclər, yeniyetmələr və uşaqlar psixotrop dərmanlardan və energetik içkilərdən istifadə edirlər. Psixtrop dərmanlar narkomaniyaya aparan qısa yoldur. Energetik içkilərdən istifadəsinin dolayı ziyanı daha təhlükəlidir. Mütamadi istifadə edildikdə, orqanizm öyrəşir və gələcəkdə istifadəçilərin aktivləşdirici maddələrə meyilləri artır. Bu içkiləri qəbul edənlər elə bilirlər ki, onlar daha aktiv və beyinləri daha yaxşı çalışır. Amma bu içkilərin qəbulu mütamadi xarakter aldıqda narkotik effekti verir. Bu səbəbdən valideynlər uşaqların ciddi nəzarət etməli, onların bu tip məhsullardan aralı durmasını təmin etməlidirlər.




### Narkomanlar genefondu məhv edirlər

Narkomaniya ilə cinayətkarlıq arasında əsaslı bağlılıq var. Çünki narkotik asılılığı olan narkotik əldə etmək üçün insan istənilən cinayəti törədə bilər. Narkotik vasitələrdən asılı olan, amma maddi imkanı olmayanlar o vasitəni əldə etmək üçün hər şeyindən keçə bilər. Onlar üçün məhrəm duyğular öz dəyərini itirir, çünki narkotik beyinlərini məhv edir. Narkoman insan öz davranışlarına nəzarəti itirir və bu hal onlara müxtəlif cinayətlərin törətməyə imkan verir. Narkomanlıq cəmiyyətin genefondunu məhv etməyə qadir olan ən böyük bəladır. Narkoman atadan, anadan törəyən körpənin orqanizmi hələ doğulmamışdan məhv edilir.

Narkotik vasitələrdən bir neçə dəfə istifadə edən adam qısa müddətdə onun əsirinə çevrilir. Hər gün bu zəhəri qəbul edənlər narkotikə xilaskar kimi baxırlar, çünki narkotik onlarda süni əhvali-ruhiyyə yaradır, keflərini duruldur, dərdlərini unutdurur. Bir çox narkoman narkotiki qəbul edəndə özünü yüngül hiss etdiyini deyir, bu müvəqqəti yüngüllük onların sağlamlıqlarını əlindən alır, orqanizmində tədricən zəifləmə, haldan düşmə baş verir.

Narkomaniyadan asılılığın iki əlaməti var. Bu fiziki və psixi asılılıqdır. Fiziki asılılıq narkotik vasitələrin qəbulu zamanı insan orqanizmində fəaliyyətin dəyişilmiş vəziyyəti ilə müşahidə olunur. Belə halda insan orqanizmi daimi olaraq narkotik maddənin qəbulunu tələb edir, narkotiksiz dözmür. Psixi asılılıq isə müəyyən hiss-həyəcanı aradan qaldırmaq və əhval-ruhiyyənin yüksəldilməsini özündə əks etdirir. Onlar həzz almaq və düşdükləri çətin vəziyyəti müvəqqəti də olsa unutmaq barədə düşünürlər. Lakin, bu müvəqqəti "həlletmə"dən sonra problem dəfələrlə ağır formada geri qayıdır.

### Narkotiklər sağlamlığı necə məhv edir?

Narkomaniya adi xəstəlik deyil. Başqa xəstəliklərdən fərqli olaraq, bu bəlaya düçar olanların müalicəsi olduqca çətindir. Həkimlər bunu müalicənin əslində, həkimin təyinatından daha çox xəstənin özünün istəyindən asılı olması ilə əlaqələndirir. Bu xəstəlikdə məcburi müalicə effekt vermir. Narkomaniya insanın iradəsi ilə bağlı olduğu üçün bundan uzaqlaşmaq istəyi də onun özündən asılıdır. Burada əslində həkim vasitəçi rolunu oynayır. Xəstəni vəziyyətdən çıxarır, asılılıq sindromunu aradan qaldırır, yuxusunu, iştahanı normaya salır, psixoterapiya aparır, masaj edir. Amma xəstənin sonradan narkotik maddəni qəbul edib-etməməsi onun özündən və düşdüyü sosial mühitdən, əhatəsində olan insanlardan asılıdır. Bu səbəbdən də narkomaniyanın müalicəsi üçün həkimlərlə yanaşı, cəmiyyət də hazırlıqlı olmalıdır.

Bu vasitələrdən asılılıq zamanı demək olar ki, insanın bütün orqanları sıradan çıxır, somatik ağırlaşmaların baş verir. Bu ürəyə, qaraciyərə, daxili cinsiyyət orqanlarına, böyrəklərə ciddi təsir edir və nəticədə paralel xəstəliklər yaranır. Dəri və digər görünən selikli qişalar avazıyır, gözün içinin rəngi dəyişərək sarımtıl olur, piy toxumaları zəif inkişaf etdiyi üçün arıqlama prosesi gedir. Daha çox narkotika qəbul edən təcrübəli xəstələrdə vena damarı boyunca inyeksiya yerləri, septiki yaralar əmələ gəlir. Narkomanlarda immunitetin zəifləməsi nəticəsində orqanizmin müqavimət qabiliyyəti itir və bu səbəbdən də onların arasında vərəmə və digər ağır xəstəliklərə yoluxma hallarına daha çox təsadüf edilir.

Narkomaniyanın digər xəstəliklərdən fərqi odur ki, burada bədənin orqanları ilə yanaşı beyin hüceyrələri də sıradan çıxır. Həm də bu hüceyrələr elə hüceyrələr hesab olunur ki, dünya səhiyyəsində onları bərpa edə bilən dərman və ya tibbi mexanizm yoxdur. Beyin hüceyrələri sıradan çıxdıqca insanın şəxsiyyətində sönüklük, deqradasiya prosesi başlayır. Hətta təcrübəli narkomanlarda gedən bu proses- mənəviyyatsızlaşma, aqressivləşmə onların üz cizgilərində də hiss olunur. Bu halda onların yeganə marağı hansı yolla olsa da, narkotik vasitənin qəbulu və fiziki asılılığın bərpa olunmasıdır. Belə xəstələri nə ətraf mühit, nə də zövq alınması mümkün olan digər şeylər maraqlandırmır. Hətta onlar üçün ailə üzvləri, uşaq və digər dəyərli olan varlıqlar arxa plana keçir.

### Narkomanı cəmiyyətə qazandırmaq mümkündürmü?

Əksər ölkələrdə narkotika istifadə etdiyinə görə, insanları məsuliyyətə cəlb etmək praktikası yoxdur. Onlara iki yol təklif olunur: ya cəzaçəkmə müəssisəsində məcburi müalicə olunmaq, ya da azadlıqda könüllü müalicəyə razılaşmaq. Narkoman bu yollardan birini mütləq seçilməlidir.

Psixoloqların fikrincə, narkotika aludəçilərinə kömək etmək lazımdır, nəinki onlara cüzamlı, vəbalı xəstə kimi baxmaq. Onlara cəza tətbiq etməklə cəmiyyətdən təcrid etmək olmaz. Narkoman cinayətkar deyil, o xəstədir. Cinayətkar onu öz qurbanına çevirən narkotik alverçisidir. Narkomanlar dispanser, müalicə mərkəzinə o zaman müraciət edirlər ki, onların ailəsi və yaxın adamları buna məcbur edir. Bu zaman o sağalmayacaq, çünki məcburi gəlib. Vacib odur ki, o müalicə olunmağı özü istəsin. Əgər özü ürəkdən sağalmaq istəyirsə sağalacaq. Çünki bədənini həkimlər, ruhunu isə özü müalicə etməlidir ki, təkrar asılı olmasın.

Azərbaycan qanunvericiliyində narkotik maddədən istifadəyə görə məsuliyyətə cəlb etmə nəzərdə tutulmayıb. Qanuna görə, şəxsin üzərində öz şəxsi istehlak miqdarından çox narkotik vasitə saxlaması onun üçün cinayət məsuliyyəti yaradır.

Son illərdə Daxili İşlər Nazirliyinin narkomaniyaya qarşı apardığı genişmiqyaslı mübarizə kampaniyası bu sahədə çox böyük effekt versə də, hələ də problemi aradan qaldırmaq mümkün olmayıb. Yüzlərlə narkotik istehsalçısı, ixdalçısı, narkotik satış şəbəkəsi üzvləri aşkar olunub həbs olunsa da, min tonlarla narkotik məhv edilsə də, hələ ki, narkotiklərə əlçatanlıq yüksəkdir və narkomanların sayı azalmaq əvəzinə artır. Bu səbəbdən narkomaniyaya qarşı mübarizə təkcə dövlətin deyil, həm də cəmiyyətin işidir. Bu məsələdə həm media, həm ictimai təşkilatlar, həm də adi vətəndaşlar həmrəy olmalı və birgə mübarizə aparmalıdır. Yalnız bu halda bu qorxunc bəlanı aradan qaldırmaq mümkündür.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
Səs
8 dekabr
2022-ci il

# Uşaqlara peyvənd vurulması vacibdirmi?

ARAŞDIRMA

*Bir çox valideynlər uşaqlar üçün profilaktik peyvəndlərin əhəmiyyəti haqqında kifayət qədər məlumatlara malik deyillər. Son zamanlar peyvənd olunmalı, yoxsa yox sualı çox kəskinləşib. İmmunitet sistemi bədəni bütün yad, zərərli maddələrdən qoruyur. Yeni doğulmuş uşağın başqa bir "qoruyucusu" var - ana. O, övladına ana südü ilə birlikdə zərərli mikroblarla mübarizə aparmaq üçün hazır anticisimlər ötürür.*



Əsrlər boyu dəhşətli epidemiyalar milyonlarla insanın həyatına son qoyub. İlk dəfə olaraq profilaktik peyvəndlər 18-ci əsrin sonunda ingilis həkimi E.Cenner tərəfindən aparılmışdır. Zaman keçdikcə bir çox təhlükəli xəstəliklərə qarşı peyvəndlər meydana çıxdı, çünki insanlar peyvəndin onlardan qorunmağın yeganə yolu olduğunu başa düşdülər.




## Peyvəndlər hansı xəstəliklərin qarşısını alır?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Peyvəndlər qızılca, vərəm, tetanus,difteriya, göy öskürək, poliomielit, hepatit B, parotit, məxmərək və s. kimi infeksiyalardan qorunmanın ən təsirli üsullarından biridir. Ötən illərin təcrübəsi göstərir ki, xəstələnənlərin əksəriyyəti məhz peyvənd olunmayan və vaxtında peyvənddən yayınanlardır.

80-ci illərin sonu və 90-cı illərin əvvəllərində difteriyaya qarşı peyvənddən imtina 120 min nəfərin xəstələndiyi və 6 minə yaxın insanın öldüyü ölkədə bu xəstəliyin epidemiyasına səbəb olmuşdur. Peyvəndin bəşəriyyət tarixində böyük, müsbət rol oynadığını, ciddi yoluxucu xəstəliklərin kortəbii yayılmasının qarşısını aldığını inkar etmək olmaz. Elə valideynlər var ki, öz qərarından arxayın olaraq övladı ilə peyvənd otağına gəlir. Amma elə valideynlər də var ki, bu və ya digər səbəbdən övladlarına peyvənd vurulmasını vacib hesab etmirlər.

Hər halda unutmaq olmaz ki, övladlarımızın sağlamlığı öz əlimizdədir. Uşaqlar üçün peyvəndlərin siyahısı Səhiyyə Nazirliyi tərəfindən hazırlanır və təsdiqlənir və milli peyvənd təqvimi şəklində verilir.

## Vərəm ciddi bir xəstəlikdir

Bütün orqan və sistemlərin təsirləndiyi xroniki yoluxucu xəstəlik, lakin 90% hallarda - ağciyərlərdə olur. Xəstəlik yalnız xəstənin özü üçün deyil, başqaları üçün də təhlükəlidir. Ona qarşı peyvənd uşağı xəstəliyin ağır, fulminant formalarından qoruya bilir.

Hepatit B qaraciyərə təsir edən təhlükəli bir xəstəlikdir. Körpəlikdə yoluxma xəstəliyin xroniki gedişinə gətirib çıxarır, siroz və qaraciyər çatışmazlığına səbəb olur. göy öskürək zəifləyən öskürək ilə xarakterizə olunur, buna qarşı tənəffüs çatışmazlığı, asfiksiya və serebrovaskulyar qəzanın inkişafı ilə 2 dəqiqəyə qədər nəfəs tutulması ola bilər.

Tetanus bütün əzələ qruplarının, o cümlədən tənəffüs əzələlərinin spazmları ilə xarakterizə olunan ölümcül bir xəstəlikdir.

Oğlanların 20%-də parotitdən əziyyət çəkdikdən sonra sonsuzluqla nəticələnə bilən orxit kimi bir komplikasiya yaranır. Hamiləlik zamanı parotit qadınların 25%-də aşağı düşür. Qızılca və məxmərək xəstəliyinin tipik ağırlaşmaları mərkəzi sinir sisteminin ensefalit və meningit, görmə və eşitmə sinirlərinin nevriti şəklində zədələnməsidir. Rubella döl üçün təhlükəlidir. Hamilə qadın xəstələnirsə, uşaq müxtəlif deformasiyalar və patologiyalarla doğula bilər.

## Peyvənd olunmasının əsas məqsədi nədir?

Peyvəndin məqsədi insan orqanizminə antigen materialı daxil etməklə xəstəliklərin qarşısını almaqdır ki, bu da immunitetimizdə əvvəlcədən xəstəliyə qarşı anticisimlər inkişaf etdirməyə imkan verir. İstənilən peyvənd könüllüdür, yazılı razılıq əsasında həyata keçirilir. Valideynlər 15 yaşına çatmamış uşaq üçün razılıq verirlər.

## Hansı peyvəndlər uyğundur

Süni qidalar ilə böyüyən uşaqlarda allergik xəstəliklər müşahidə olunur. Onlarda əsasən köklüyə meyillilik və mədə-bağırsaq sistemində narahatlıq yaranır. Bundan başqa süni qidalar düzgün hazırlanmadıqda fəsadları çox olur. Butulkada və ya yeməkdə infeksiyalar ola bilir.

Pediatrların fikrinə görə xüsusilə pandemiya dövründə peyvənd mütləq edilməlidir. Uşaqlar arasında koronavirusa yoluxma hallarının az olması onlara vurulan pnevmakok və BSJ peyvəndi ilə əlaqədardır. Bu peyvəndlər ağciyərlərdə və bronxlarda xəstəliyin yayılmasının qarşısını alır. Qızdırma halında ancaq qızdırma verən peyvəndlərin vurulması qadağandır. Digər bütün peyvəndlər vurula bilər.

## Peyvəndin yan təsirlərindən necə qorunmalı?

Sağlam uşaqlarda peyvəndin yan təsiri olmur. Mində bir uşaqda narahatlıq yarada bilər ki, bu da bədəndən asılıdır. Peyvəndi hər uşağa vurmaq olmaz. Uşaq peyvənd vurulmadan öncə mütləq pediatr, nevropatoloq müayinəsindən keçirilir, ondan qan analizi götürülür.

*Havar Şəfiyeva*



# "Messi hazırda bütün Argentinadır"

***Braziliya millisinin futbolçusu Dani Alveş Argentina millisinin kapitanı Lionel Messinin DÇ-2022-dəki çıxışı barədə danışıb.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, 39 yaşlı müdafiəçi mundialda 3 qola imza atan 35 yaşlı hücumçunu tərifləyib: "Hazırda Messi bütün Argentinadır. Hər şey onun əlindən keçir, top daim onun ayağındadır. Düşünürəm ki, Messi əla formadadır. O, şübhəsiz ki, dünya çempionatında axtarılması lazım olan oyunçulardan biridir. Amma hələlik Argentina ilə mümkün yarımfinal haqda düşünməməliyik. Əvvəlcə 1/4 finalda Xorvatiyaya qarşı oynamalı olacağıq".



# Yuxululuq qorxulu xəstəliklərin əlaməti ola bilər

***Rusiyalı həkim İrina Tereşçenko yuxululuq və yorğunluğun təhlükəli əlamətlər olduğunu bildirib.***

Onun sözlərinə görə, susuzluq hissi və ləng regenerasiya ilə müşayiət olunan yuxululuq və apatiya diabetə işarə ola bilər.

Həmçinin, daimi yatmaq istəyi anemiya və tiroid xəstəlikləri, xüsusən də hipotiroidizmdən xəbər verə bilər.

"Dəmir, vitamin D, E, B12, sink, maqnezium, kalium gümrahlığımıza cavabdeh olan əsas maddələrdir. Zəiflik halında, qanda onların həcmini yoxlamaq tövsiyə olunur. D vitamininə xüsusi diqqət yetirilməlidir. Belə ki, çoxu məhz onun çatışmazlığından əziyyət çəkir", - deyə Tereşçenko qeyd edib.

# Quş əti niyə ucuzlaşıb?



"Quş ətinin ucuzlaşması üçün dövlət müəyyən effektiv işlər aparıb". Bu sözləri SiA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, bu barədə bir çox vergilərdən azadolma halları baş verib: "Eləcə də quş yemləri vergilərdən azad olunub. Ona görə də qiymətdə ucuzlaşma müşahidə olunur. Ərzaqların qiymətinin yüksəlməsi fonunda, quş ətinin ucuzlaşması dövlətin apardığı müsbət addımdır".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600